10 iyul 2019 №49 (1634)

www.medeniyyet.az

MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# Dünyanın Bakıya diqqət kəsildiyi on gün

## UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası başa çatır

Birləşmiş Millətlər Təhsil, Elm, Mədəniyyət Təşkilatı – UNESCO-nun həm iştirakçı sayına, ölkələr üzrə əhatə dairəsinə, davametmə müddətinə, həm də qəbul etdiyi qərarların əhəmiyyətinə və doğurduğu beynəlxalq rezonansa görə ən böyük tədbiri sayıla biləcək Dünya İrs Komitəsinin illik sessiyası bu gün başa çatır.



"Bu 10 gün ərzində bizi gərgin iş, səmərəli müzakirələr gözləyir" – bu sözləri iyulun 1-də Dünya İrs Komitəsinin 43-cü sessiyasının ilk iş günü keçirilən mətbuat konfransında UNESCO baş direktorunun müavini Ernesto Ottone Ramirez bildirmişdi. Həqiqətən də, sessiyanın davam etdiyi günlər gərgin, işgüzar müzakirə və diskussiyalarla, Dünya irs siyahısı ilə bağlı təqdimatlara baxıldığı 5-7 iyul tarixi isə həm də həyəcanlı anlarla yadda qaldı. Təsadüfi deyil ki, nominasiyaları müzakirə olunan hər bir ölkənin informasiya vasitələri Bakıdan gələn xoş müjdəni xəbərlər blokunun ilk sırasında dərhal yayırdılar. Bu günlər ərzində beş qitənin bir çox ölkələrində ən azı mədəniyyət gündəmi Bakı ilə məşğul idi, bu mövzuda dünya Azərbaycan paytaxtına diqqət kəsilmişdi.

Bakı sessiyasınadək UNESCO-nun Dünya irs siyahısında 167 ölkədən 1092 irs nümunəsi vardı. 43-cü sessiyadan sonra bu say 1121-ə çatdı. Deməli, Bakıda qəbul olunan qərarlar 29 dəfə müxtəlif ölkələrdə xoş əks-səda doğurdu. Və bu sırada biz də varıq. Beləliklə, Bakıda UNESCO günləri bu gün başa çatır…

mövzunun davamı səh. 2-də

# Prezident Azərbaycan xalqını təbrik edib

Prezident İlham Əliyev iyulun 7-də UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasında Şəkinin tarixi mərkəzinin və Xan sarayının Dünya irs siyahısına daxil edilməsi münasibətilə Azərbaycan xalqını təbrik edib.

Təbrikdə qeyd edilir ki, Azərbaycanın ən qədim şəhərlərindən olan Şəkinin tarixi hissəsi yüzillər boyu ölkəmizin mədəniyyət mərkəzlərindən biri kimi tanınmışdır. Unikal abidələrlə zəngin Şəki şəhərinin tarixi hissəsinin mühafizəsi və inkişafı daim dövlətin diqqətində saxlanılmışdır: "Son illər Azərbaycanın mədəni irsinin dünya səviyyəsində tanıdılması və qorunması istiqamətində çoxsaylı layihələr həyata keçirilmişdir. Qeyd edilməlidir ki, bu fəaliyyətlər beynəlxalq təşkilatlarla, xüsusən dünya mədəniyyəti, təhsili və elminə məsul olan UNESCO ilə sıx əməkdaşlıq şəraitində gerçəkləşdirilir".

Diqqətə çatdırılır ki, Qız qalası və Şirvanşahlar sarayı ilə birlikdə İçərişəhər, həmçinin Qobustan qaya sənəti mədəni landşaftı UNESCO-nun Dünya irs siyahısında, həmçinin xalqımızın qeyri-maddi mədəni irsinin 13 nümunəsi UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısında yer alır: "Bu hadisələr Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə verdiyi töhfənin beynəlxalq miqyasda bir daha etirafıdır".

Təbrikdə daha sonra deyilir:

"Əziz həmvətənlər!

Şəkinin tarixi mərkəzində keçmişimizi özündə təcəssüm etdirən Şəki Xan sarayı, karvansaraylar, məscid və minarələr, qədim körpülər, sənətkarlıq emalatxanaları və yaşayış evləri bu gündən etibarən təkcə xalqımızın deyil, bəşəriyyətin mədəni irsi hesab olunur. UNESCO tərəfindən "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin dünya irsi elan edilməsi münasibətilə bütün Azərbaycan xalqını təbrik edirəm".

# Tarixi irsimizin dünyada tanıdılmasında böyük nailiyyətlər əldə edilib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin UNESCO-nun Dünya irs siyahısına daxil edilməsi münasibətilə Azərbaycan xalqını təbrik edib.

Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində edilən paylaşımda deyilir:

"Azərbaycan xalqı milli mədəniyyətimizin, adət-ənənələrimizin, tarixi irsimizin təkrarolunmaz incilərini qoruyub saxlayaraq dünyada tanıdılması istiqamətində böyük nailiyyətlər əldə edib. Bu gün isə biz Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin UNESCO-nun Dünya irs siyahısına salınmasını qeyd edirik. Bu tarixi hadisə münasibətilə bütün xalqımızı səmimi qəlbdən təbrik edirəm!".

# Avropa İttifaqı Şurasının Prezidenti Qobustan Milli Tarix-Bədii Qoruğunda olub

Azərbaycanda səfərdə olan Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk iyulun 9-da Qobustan Milli Tarix-Bədii Qoruğunda olub.

Mədəniyyət naziri Əbülfəs Qarayev və nazirlik yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanovun iştirakı ilə əvvəlcə qonaq qoruğun ərazisində yaradılmış muzeydə nümayiş etdirilən eksponatlara baxıb.



Məlumat verilib ki, Qobustan Dövlət Tarix-Bədii Qoruğu açıq səma altında qoruq-muzey kimi böyük şöhrət qazanıb. Ərazidə Daş dövründən Orta əsrlərə qədər həyat və məişəti əks etdirən çoxsaylı maddi mədəniyyət nümunələrini müasir azərbaycanlıların ulu əcdadları min illər ərzində yaradıblar. Qobustan qaya rəsmləri dünyada bu tipli abidələrdən ən zənginidir. Qoruq ərazisində alimlər tərəfindən 6 mindən çox qayaüstü təsvir, 20 mağara və yaşayış yeri, 40 kurqan aşkar edilib və öyrənilib.

Qeyd edilib ki, Qobustandakı nadir qayaüstü rəsmlərin geniş təbliğinin xüsusi əhəmiyyətini nəzərə alan dövlətimizin başçısı İlham Əliyevin sərəncamı ilə qoruq muzeyi üçün yeni bina tikilib.

Qonağın diqqətinə çatdırılıb ki, dünya əhəmiyyətli tarixi abidə olan Qobustan qoruğu 2007-ci ildə UNESCO-nun Dünya irs siyahısına daxil edilib.

Donald Tusk ərazidə aparılmış tədqiqat işləri ilə və tarixi eksponatlarla maraqlanıb.

Sonda qonağa Qobustanın tarixini əks etdirən kitablar hədiyyə olunub.

Avropa İttifaqı Şurasının rəhbəri Qobustan Milli Tarix-Bədii Qoruğundan xoş təəssüratla ayrılıb.



# Şəkinin tarixi mərkəzi artıq dünya irsidir

Azərbaycanın qədim irs və mədəniyyət mərkəzlərindən biri, son illər "MDB-nin mədəniyyət paytaxtı", "Türk dünyasının mədəniyyət paytaxtı" seçilən, 2017-ci ildə UNESCO-nun "Yaradıcı şəhərlər şəbəkəsi"nə daxil edilən Şəki şəhəri tarixi mərkəzi və möhtəşəm Xan sarayı ilə artıq dünya irsinin bir parçasıdır. İyulun 7-də Dünya İrs Komitəsinin 43-cü sessiyasında qəbul olunan tarixi qərar qədim şəhəri bütün dünyaya tanıtmaqla bərabər Azərbaycan mədəni irsinin növbəti təntənəsidir.

Qədim İpək Yolunun üzərində mühüm ticarət mərkəzi kimi tanınan, ipəyi ilə ad çıxaran Şəki çay daşları ilə döşənmiş küçələri və Orta əsrlər memarlığı ilə Azərbaycanın ən mənzərəli şəhərlərindən biridir. Yüz illər bundan əvvəl İpək Yolu boyu çoxlu mehmanxanalar vardı, bu gün Azərbaycana gələn əcnəbilər isə XVIII əsrə aid olan "Yuxarı Karvansara"da qala bilərlər.

Şəki Xan sarayı şəhərin ən məşhur tikilisidir. XVIII əsrdə inşa edilmiş ikimərtəbəli bina öz zəngin interyeri və eksteryeri ilə fərqlənir. Binanın içərisində çiçəklər, fauna, döyüş və ov səhnələri təsvirləri olan kompleks freskalarla bəzənmiş altı otaq var.

davamı səh. 2-də

# "Gələn il bizim ölkəmiz də dünya xalqlarının mədəniyyət tarixində izini qoyacaq"

2020-ci ildə Dünya İrs Komitəsinin 44-cü sessiyasına Çin Xalq Respublikası sədrlik edəcək. Çox şadam ki, ölkəmiz Dünya İrs Komitəsinə sədrlik etməklə dünya xalqlarının mədəniyyət tarixində öz izini qoyacaq.




Bu sözləri Çin Xalq Respublikasının UNESCO üzrə Milli Komissiyasının rəhbəri Tian Xuejun iyulun 9-da jurnalistlərə müsahibəsində bildirdi.

Azərbaycanda keçirilən sessiyanı yüksək dəyərləndirən qonaq dedi: "Hamınız şahidsiniz ki, bu tədbir dünya xalqlarının kimliyini və tarixi yaddaşını ifadə edən maddi və təbii irsə, ən qədim abidələrə olan dəyəri özündə əks etdirir. Bu gün burada hamı məni təbrik edir, müsahibə alır və mən bütün bu təbriklərə cavab verərək həm də düşünürəm ki, gərək Bakıda bir neçə gün ərzində toplaşdığımız bu sessiyalardakı sevinci, auranı, yüksək təşkilatçılığı 44-cü sessiyada da reallaşdıra bilək. İnanıram ki, bizim dövlət bu tədbirə təqdirəlayiq ev sahibliyi edəcək".

Tian Xuejun qeyd etdi ki, Azərbaycan bu cür beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi ilə bağlı böyük təcrübəyə malikdir: "Sessiya müddətində biz bunun bir daha şahidi olduq. Elə bu səbəbdən də Çində keçiriləcək 44-cü sessiyada ölkənizin bu təcrübəsindən yararlanmaq niyyətindəyik. Sessiyanın zəngin mədəni proqramı, sizin qonaqpərvərliyinizə görə bir daha bütün təşkilat komitəsinə minnətdarlığımı bildirirəm".

# Dünya irs siyahısı yeni adlarla zənginləşdi

Dünya İrs Komitəsinin 43-cü sessiyası iyulun 6-da Dünya irs siyahısına təklif edilən nümunələrin təqdimat və müzakirəsi ilə işini davam etdirdi.

Sessiyanın sədri, Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev plenar iclası açaraq tədbirin yüksək səviyyədə keçdiyini diqqətə çatdırdı. Bildirildi ki, iyulun 5-də namizədlik fayllarının müzakirəsi zamanı 8 nominasiya Dünya irs siyahısına daxil edilib. Qarşıda bizi yeni müzakirələr gözləyir.

Daha sonra Bəhreynin Dilmun kurqanlarının nominasiyası ilə bağlı müzakirə başladı. Bildirildi ki, Dilmun çox əhəmiyyətli bir ticarət yolu idi. Özünün inkişaf mərhələsində Bəhreyn, Küveyt və Səudiyyə Ərəbistanının ərazilərini əhatə edirdi.

Müzakirələrdən sonra Bəhreynin təqdim etdiyi nominasiya Dünya irs siyahısına daxil edildi. Sədr Bəhreyn dövlətini təbrik edərək bildirdi ki, bu nominasiyanın qəbulu ilə artıq Dünya irs siyahısındakı abidələrin sayı 1100-ə çatmış oldu.

Növbəti nominasiya Avstraliyanın Budj Bim mədəni regionu ilə bağlı idi. Məlumat verildi ki, bu region Avstraliyanın cənub-şərqində yerləşir. Burada 4 relyef növü mövcuddur. Macarıstan, Çin, İspaniya, Norveç, Azərbaycan təmsilçiləri nominasiyanı dəstəklədiklərini diqqətə çatdırdılar.

Müzakirələrdən sonra bu nominasiya da qəbul edildi. Avstraliyanın nümayəndəsi aborigen əhaliyə aid mədəni nominasiyanın qəbuluna görə təşəkkür etdi.

davamı səh. 4-də

Yanardağda yoqa və poeziya axşamı



səh. 5

"Azərbaycan hər zaman darıxanda getmək istədiyim doğma yer kimi mənə əzizdir"

səh. 6



"Şərqdən Qərbə əsən meh"

səh. 8

# Şəki Xan sarayı və şəhərin tarixi mərkəzi Dünya irs siyahısına salındı

İyulun 7-də Dünya İrs Komitəsinin 43-cü sessiyasında müzakirəyə çıxarılan növbəti nominasiya Azərbaycanın təqdimatı – Şəki Xan sarayının və şəhərin tarixi mərkəzinin Dünya irs siyahısına salınması ilə bağlı məsələ oldu.

Qeyd edək ki, 2017-ci ilin iyulunda Polşanın Krakov şəhərində keçirilən Dünya İrs Komitəsinin 41-ci sessiyasında bu nominasiya müzakirə olunmuş və Azərbaycan tərəfinə ərazinin konservasiya və qorunma mexanizmlərinin yaxşılaşdırılması, monitorinq sisteminin inkişaf etdirilməsi və digər məsələlərlə bağlı tövsiyələr verilmişdi.

Nominasiya ilə bağlı İCOMOS-un (Abidələr və Tarixi Yerlərin Mühafizəsi üzrə Beynəlxalq Şura) hesabatı dinlənildi. Şəkinin tarixi, Xan sarayında aparılmış son bərpa işləri barədə məlumat verildi. Şəhərin tarixinin iki min ilə yaxın olduğu, qədim məhəllələrin XVIII əsrin sonlarında salındığı qeyd edildi. Bununla belə İCOMOS tərəfindən müəyyən tövsiyələrin olduğu bildirildi.

Müzakirədə ilk çıxış edən Küveyt nümayəndə heyəti




İCOMOS-un iki il əvvəl qəbul etdiyi qərara toxunaraq bildirdi ki, ötən müddətdə Azərbaycan Prezidentinin bununla bağlı sərəncamı olub, xeyli işlər görülüb. Bəhreyn Azərbaycanın mədəni irsinə bağlılığının nəzərə alınmasını qeyd etdi. Braziliya Şəkinin siyahıya salınması ilə əlaqədar detallar barədə üzv dövlətin çıxışını dinləməyi xahiş etdi.

İndoneziya, Tunis Şəki şəhərinin siyahıya daxil edilməsini təklif etdi. Bosniya, Uqanda, Anqola nümayəndələri də Şəki Xan sarayı və Şəki şəhərinin qədim hissəsinin siyahıya daxil edilməsini məqbul hesab etdi.

Norveç Azərbaycanın mədəni irsə bağlılığını yüksək qiymətləndirdi. Zimbabve, Burkina Faso, İspaniya, Qvatemala, Avstraliya nominasiyanın müsbət həllini təklif etdi.

Üzv dövlətlərin dəstək çıxışlarından sonra Azərbaycan nümayəndə heyəti söz aldı. Bildirildi ki, Şəki ilə bağlı qovluq 6 ildir ki, tərtib edilib. 2016-cı ildə İCOMOS-a verilmiş sənədlə bağlı 2017-ci ildə müəyyən tövsiyələr olub. Biz sənəddəki elmi qiymətləndirmə ilə razıyıq, konservasiya, idarəçiliklə bağlı tövsiyələri də qəbul etmişik.

Müzakirə və çıxışların yekunu olaraq Şəki Xan sarayı ilə şəhərin tarixi mərkəzinin UNESCO-nun Dünya irs siyahısına salınması barədə qərar qəbul olundu.

Beləliklə, qədim Şəki İçərişəhər və Qobustandan sonra Azərbaycanın bu siyahıda yer alan üçüncü mədəni irs məkanı oldu.

Qeyd edək ki, nazir Əbülfəs Qarayev sessiyada qərar qəbul olunandan sonra çıxış edərək Azərbaycan hökuməti adından sessiya iştirakçılarına təşəkkürünü bildirdi. Nazir diqqətə çatdırdı ki, biz bu məsələ ilə bağlı edilən tövsiyələri və müvafiq öhdəlikləri yerinə yetirəcəyik: "Bu məsələdə dəstək göstərdiklərinə görə Dünya İrs Komitəsinə üzv dövlətlərə, İCOMOS-a təşəkkür edirəm".

Azərbaycanın UNESCO yanında daimi nümayəndəliyinin rəhbəri, səfir Anar Kərimov Şəkinin Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olduğunu vurğulayaq bu qərarın əhəmiyyətini qeyd etdi.

Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov da müzakirə zamanı qeyd olunan bütün fikirlərin nəzərə alınacağını deyərək, sessiyaya minnətdarlığını bildirdi və hamını Şəkiyə dəvət etdi.

## "Bu, xalqımızın mədəni irs tarixində fövqəladə hadisədir"

"Dünya İrs Komitəsi Azərbaycandan artıq üçüncü nominasiyasını qəbul etdi. Bu gün Şəki şəhərinin tarixi hissəsi və Şəki Xan sarayı UNESCO-nun Dünya irs siyahısına salındı".

Bu sözləri iyulun 7-də Dünya İrs Komitəsinin 43-cü sessiyasında Şəki ilə bağlı qərar qəbul olunandan sonra jurnalistlərə açıqlamasında Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev deyib.

Nazir bildirib ki, bu proses asan başa gəlməyib. "Altı ildir ki, Azərbaycandan ekspertlər bu faylı hazırlayaraq müvafiq beynəlxalq təşkilatlara təqdim etmişdi. İlk mərhələdə onların təhlili kifayət qədər müsbət olmamışdı. Lakin Azərbaycanın gətirdiyi sübutlar və cənab Prezidentin məsələ ilə bağlı imzaladığı sərəncamın icrası bu qərarın verilməsində müsbət rol oynadı".

Əbülfəs Qarayev Azərbaycanın UNESCO ilə əlaqələrinin inkişafında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi rolunu da vurğulayıb və ona təşəkkürünü bildirib.

Nazir Şəki şəhərinin tarixi hissəsi və Şəki Xan sarayının UNESCO-nun Dünya irs siyahısına salınması münasibətilə Azərbaycan xalqını təbrik edib: "Xalqımızın mədəni irs tarixində bu, fövqəladə hadisədir".

## Çin qəzeti Şəkinin UNESCO siyahısına daxil edilməsindən yazır

"China Daily" qəzeti Dünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasının iyulun 7-də keçirilən iclasında Azərbaycanın Şəki şəhərinin tarixi mərkəzinin Dünya irs siyahısına daxil edilməsi barədə xəbər yayıb.




Xəbərdə qeyd olunur ki, Böyük Qafqaz sıra dağlarının ətəklərində yerləşən Şəki şəhəri tarixi ticarət yollarının üzərində qərar tutub. Şəkidəki tarixi abidələrin tikintisində Səfəvilər və Qacarlar dövlətlərinin, habelə Rusiya imperiyası dövrünə aid memarlıq ənənələrindən bəhrələniblər.

Bildirilir ki, Şəkidəki tarixi abidələrin ən məşhurlarından olan Xan sarayının və karvansaraların inşası XVIII əsrdə şəhərdə ipəkçiliyin və ipək ticarətinin çiçəkləndiyi dövrlərə təsadüf edir.

Qeyd edək ki, 100 milyondan çox çap və onlayn abunəçisi olan "China Daily" təkcə Çində deyil, dünyada ingilis dilində nəşr edilən ən nüfuzlu qəzetlərdən biridir. AZƏRTAC ilə "China Daily" qəzeti arasında əməkdaşlıq memorandumuna əsasən iki media orqanı informasiya mübadiləsi edir.

## Şəkinin tarixi mərkəzi artıq dünya irsidir

*əvvəli səh. 1-də*

Şəkinin qədim hissəsini əhatə edən "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğu 1967-ci ildə yaradılıb. Qoruğun ümumi ərazisi 283 hektardır. Ərazidə dövlət qeydiyyatına alınan dünya, ölkə və yerli əhəmiyyətli 25 tarixi-memarlıq, arxeoloji və park-monumental abidə mövcuddur. Qoruğun ərazisində yaşı 300-dən 700-dək olan 24 ədəd Xan çinarı da dövlət tərəfindən qorunur. Yerli əhali bu gün də qədim ənənələrə sadiqdir. Qoruğun ərazisində qədim məhəllə adları indiyədək qorunub saxlanılır.

Qoruğun ərazisində sənətkarlıq emalatxanaları fəaliyyət göstərir. Şəki sənətkarları tərəfindən 27 qədim sənət növü, o cümlədən şəbəkə, dulusçuluq, təkəlduz, xovlu tikmə, papaqçılıq, dabbaqlıq, ipəkçilik, nalbəndlik, misgərlik, dəmirçilik, zərgərlik və digər sənət növləri qorunub saxlanılır, inkişaf etdirilir.

Bu ərazinin digər özəlliyi Azərbaycan mədəniyyətinə bəxş etdiyi görkəmli şəxsiyyətlərin adları ilə bağlıdır. Mirzə Fətəli Axundzadə, Rəşid bəy Əfəndiyev, Sabit Rəhman, Bəxtiyar Vahabzadə, Şəfiqə Axundova, Emin Sabitoğlu, Rasim Ocaqov Şəkinin bu məkanında doğulub. Bu şəxsiyyətlərin bir çoxunun qoruğun ərazisində ev-muzeyləri var.

# 43-cü sessiyanın son işçi iclası keçirilib

İyulun 9-da UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası plenar iclasda öz işini davam etdirdi.

Sessiyaya sədrlik edən Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev məlumat verdi ki, bugünkü iclas cari sessiyanın son işçi iclasıdır. Bu gün əsasən büdcə, inzibati, beynəlxalq yardım məsələləri müzakirə ediləcək.

Əvvəlcə Dünya irs siyahısındakı beynəlxalq maliyyə yardımına ehtiyacı olan bir sıra nominasiyaların dəstəklənməsi məsələsi üçün ayrılan vəsaitin necə bölüşdürülməsi barədə hesabat dinlənildi.

Ekvadorun Qalapaqos milli parkı, Qvatemalanın Antiqua xristian dini məbədi, Nigeriyanın Aqades tarixi mərkəzi, Seyşel Adalarında yerləşən Valle-de-Mo təbii qoruğunun bərpası və konservasiyası, idarə olunması ilə bağlı beynəlxalq yardımın artırılmasının vacibliyi vurğulandı.

Sonra mövcud əməliyyat qaydalarına əlavə edilən bəndlər müzakirə edildi.

Növbəti məsələ olaraq Dünya İrs Komitəsinin prosedur qaydalarına dəyişikliklər müzakirə edildi. Bu qərar da qəbul edildikdən sonra iclasın sədri 43-cü sessiyada mühüm qərarların qəbul edildiyini söylədi və bu qərarların həyata keçiriləcəyinə əmin olduğunu bildirdi.

İclasın sonunda 2020-ci ildə Dünya İrs Komitəsinin 44-cü sessiyasına Çin Xalq Respublikasının sədrlik edəcəyi və sessiyanın Fuçjou şəhərində keçiriləcəyi bildirildi.

Çin nümayəndə heyəti bu etimada görə minnətdarlığını bildirdi və Fuçjou şəhərinin tanıtımlıq videoçarxı nümayiş etdirildi.



44-cü sessiya iclaslarının sədri, sədr müavinləri və məruzəçilər, sessiyanın müvəqqəti gündəliyi təsdiq edildi. Bununla da UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası işçi iclaslarını başa çatdırdı.

İyulun 10-da bağlanış iclasında sessiyanın yekun sənədi qəbul ediləcək.

**GÜLCAHAN**

## Ölkəmiz Dünya İrs Komitəsinin işçi qrupuna da rəhbərlik edib

Azərbaycan Respublikasının sədrlik etdiyi UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində ölkəmiz həmçinin komitənin Xüsusi işçi qrupuna (Ad Hoc) da rəhbərlik edib.

Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəliyinin ikinci katibi Rəşad Baratlının rəhbəri olduğu işçi qrupda 33 ölkə, UNESCO-nun Dünya İrs Mərkəzi və məşvərət qurumlarının nümayəndələri təmsil olunub. İşçi qrupun gündəliyində nominasiya prosesində islahatlar və əlavə məşvərət xidmətlərinin müzakirəsi məsələləri öz əksini tapıb.

Aparılan müzakirələrin nəticələri Dünya İrs Komitəsinin 43-cü sessiyasına təqdim edilib. Sessiya zamanı nominasiya prosesinin islahatı ilə bağlı önəmli qərarlar qəbul olunub. Bununla əlaqədar olaraq komitənin üzvləri Azərbaycan Respublikasına təşəkkürlərini bildiriblər.

# Dünya İrs Komitəsinin fəaliyyəti ilə bağlı sənədlər və hesabatlar müzakirə olunub

İyulun 8-də UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası Bakı Konqres Mərkəzində işini davam etdirdi.

İclası açıq elan edən sədr, Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev iştirakçılara plenar iclasdan əvvəl keçirilmiş büro iclası barədə məlumat verdi. Bildirdi ki, büro iclasında bu günlər ərzində görülən işlər, qəbul edilən qərarlar müzakirə edilib. Sessiyaya təqdim edilmiş qərar layihələri üzv dövlətlər tərəfindən edilən əlavə və düzəlişlər müzakirə olunaraq gündəliyə daxil edilib.

Sonra gündəlik üzrə məsələlərə baxıldı.

Keniyanın 2001-ci ildə UNESCO siyahısına salınmış Lamu şəhərinin vəziyyəti ilə bağlı müzakirə edilən qərara düzəlişlərin edilməsi gələn sessiyayadək təxirə salındı.

"Tarixi şəhərlərdə turizm" ilə bağlı Beynəlxalq Memarlar İttifaqının (BMİ) Azərbaycanda keçirilmiş konfransında qaldırılan məsələlər barədə iclasda Azərbaycan nümayəndə heyəti məlumat verdi. Bildirdi ki, BMİ bununla bağlı xüsusi təlimat hazırlayır.

Sonra İCCROM (Mədəni Mülkiyyətin Mühafizəsi və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəz) nümayəndəsi hesabatla çıxış etdi. Hesabatda



üzv dövlətlər, məşvərətçi orqanlar ilə əməkdaşlığın müsbət təsirindən söz açıldı. Məruzəçi qeyd etdi ki, ekspertlər təbii fəlakətlərin idarə olunması, iqlim dəyişikliyinin Dünya irs siyahısına daxil edilmiş təbiət və mədəniyyət abidələrinə təsirini azaltmaq üzərində çalışırlar.

İclasda UNESCO-nun 2-ci kateqoriya mərkəz və qurumlarla ilə əməkdaşlıq perspektivləri də müzakirə edildi. İCCROM təmsilçisi çıxışlardan sonra söz alaraq bacarıqların idarə olunması üzrə nəzərdə tutulan bütün tədbirləri həyata keçirmək üçün maliyyə vəsaitinin kifayət qədər olmadığını bildirdi. Qurumun Afrika ölkələri üçün xüsusi proqramın hazırlanması barədə məlumat verdi və gənclərin bu işə cəlb olunmasının vacibliyini qeyd etdi.

Dünya İrs Mərkəzinin direktoru xanım Metxild Rossler deyilənləri yekunlaşdıraraq bildirdi ki, əgər bütün ölkələr bacarıqların və sahələrin idarə olunmasına qoşularsa, bizim işimiz rahat, nailiyyətlərimiz çox olar. Xırda düzəlişlərdən sonra qərar qəbul edildi.

Növbəti sənəd "Təhlükə altında olan dünya irs siyahısı" barədə idi. Qərar layihəsində diqqətə çatdırıldı ki, sessiyada Çilidəki Humberstone and Santa Laura duz mədəni və Betlehem kilsəsi (Fələstin) təhlükə gözləyən abidələr siyahısından çıxarılıb.

Xanım Rossler əlavə olaraq dedi ki, əgər "Dünya mədəni və təbii irsinin qorunması haqqında Konvensiya"ya (1972) əsasən, Dünya İrs Mərkəzinə maddi yardım edilərsə, biz yoxsul ölkələrə öz abidələrini qorumaq üçün maliyyə dəstəyi göstərə, bu yolla da təhlükə gözləyən abidələr siyahısını təzələyərək qısalda bilərik. Həqiqətən də, elə ölkələr var ki, maliyyə çətinlikləri üzündən öz abidələrini bərpa edə, illərlə təhlükə siyahısından çıxara bilmirlər. Mövzu müxtəlif aspektlərdən geniş müzakirələr doğurdu. Müzakirələrdən sonra təklif edilən dəyişikliklər qərar layihəsinə əlavə edildi.

***

İyulun 8-də günün ikinci yarısında sessiyada üzv dövlətlər ilə Dünya İrs Komitəsi, məşvərətçi orqanlar arasında əməkdaşlıq protokolu, prosessual qaydalarına dair yeni qərar layihəsi geniş müzakirə edildi. Əsas müzakirə mövzusu komitənin növbəti sessiyasında müzakirəyə çıxarılacaq nominasiya ilə bağlı son məlumatların məşvərətçi orqanlara fevralın 28-dək çatdırılması təklifi oldu. Nümayəndə heyətləri qərar layihəsinə əlavə edilmək üçün təkliflər irəli sürdülər. Bənd-bənd müzakirə edilən qərar qəbul edildi.

İkinci müzakirə edilən layihə Asiya, Afrika, ərəb dövlətləri qrupu, Karib dənizi ölkələri, Avropa və Şimali Amerika üzrə hesabatların dinlənilməsi oldu. İlk hesabatı Çin təqdim etdi. Məruzəçi Asiya və Sakit okean regionunda təhlükə altında olan məkanları ziyarət etmələri, seminarlar keçirmələri barədə ətraflı məlumat verdi.

Ardınca da Afrika və ərəb dövlətləri qrupunun hesabatları dinlənildi və iradsız qəbul edildi. Ərəb qrupu üzrə məruzəçi hərbi münaqişələrdən əziyyət çəkmiş Liviya, Suriya və İraqda abidələr ilə bağlı xüsusi monitorinqlər keçirildiyini vurğuladı. Karib və Latın Amerikası ölkələri üzrə məruzədə regionda baş vermiş təbii fəlakətlərin nəticələri öyrənilmiş, mədəni risk qrupuna daxil olan məkanlar nəzərdən keçirilmişdi.

Avropa və Şimali Amerika regionu üzrə hesabat məruzəsində vurğulandı ki, onlar 39-cu sessiyada qəbul edilmiş tədbirlər planı üzrə öz fəaliyyətlərini davam etdiriblər. Sonra katiblik bir il ərzində görülmüş işlər, mühüm sənədlərin alt-regionların işlək dilinə tərcümə edildiyi barədə məlumat verildi. Hesabatlara əlavələr olmadığı üçün müzakirəsiz qəbul edildi.

Dünya İrs Komitəsi və məşvərətçi orqanların hazırladıqları növbəti sənəd mədəni sahələrin siyahıdan çıxarılması prosedurlarının təkmilləşdirilməsinə həsr olunmuşdu. Hesabat dinlənildikdən sonra Norveç, Burkina Faso, Azərbaycan öz fikirlərini bildirdilər. Sənəd qeyd-şərtsiz qəbul edildi.

Sonra iclasın sədri – Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev növbəti məsələni elan etdi: qarışıq nominasiyaların siyahıya daxil edilməsi üzrə proseslərdə irəliləyiş haqqında Dünya İrs Komitəsi ilə İCOMOS-un birgə təqdimatı dinlənildi. Təkliflər nəzərə alınmaqla sənəd qəbul edildi.

Sonuncu təqdim edilən sənəd Dünya İrs Komitəsinin siyasi sənədlər toplusu oldu. Bildirildi ki, toplunun elektron variantı Koreya Respublikası hökumətinin maliyyə dəstəyi ilə hazırlanıb. İki variantda hazırlanmış sənəd toplusu getdikcə daha da təkmilləşdiriləcək. Sənəd təsdiq edildi.

**G.MİRMƏMMƏD**

# Ölkəmizin mədəni irs nümunələrinin UNESCO siyahısında sayı bundan sonra da artacaq

İyulun 7-də UNESCO-nun Dünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasında Azərbaycanın qədim irsi, zəngin mədəniyyəti, həmçinin beynəlxalq miqyasda nüfuzu üçün müstəsna önəm kəsb edən qərar qəbul olundu, Şəki şəhərinin tarixi mərkəzi Şəki Xan sarayı ilə birlikdə Dünya irs siyahısına salındı. 2000-ci ildə Qız qalası və Şirvanşahlar sarayı ilə birlikdə İçərişəhərin, 2007-ci ildə Qobustan qayaüstü rəsmlərinin UNECKO siyahısına daxil edilməsindən sonra bu, Azərbaycanın dünya xəzinəsində yer alan üçüncü mədəni irs məkanıdır.

Şəki şəhərinin tarixi mərkəzinin və Şəki Xan sarayının Dünya irs siyahısına salınması Azərbaycanın UNESCO-da ardıcıl fəaliyyətinin, eləcə də ölkə rəhbərliyinin bu məsələyə xüsusi diqqətinin nəticəsidir.



Bu uğur Azərbaycanın illərdən bəri – həm ölkəmizin daxilində, həm də onun hüdudlarından kənarda – dünya irsi obyektlərinin qorunması ilə bağlı həyata keçirdiyi dövlət siyasətinin təbii davamıdır.

Xüsusi məmnunluq doğurur ki, Şəki ilə bağlı tarixi qərar Dünya İrs Komitəsinin ölkəmizdə keçirilən sessiyasında qəbul olunub. UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsi faktının özü Azərbaycanın dünya irsi obyektlərinin qorunmasi məsələsində xidmətlərinin beynəlxalq miqyasda etirafı və yüksək qiymətləndirilməsinin sübutudur.

Bu hadisə Azərbaycanın dünya mədəni-turistik xəritəsində beynəlxalq mövqelərini daha da möhkəmləndirir.

UNESCO siyahısına daxil edilmək dünya mədəni və təbiət irsinin saxlanılması üçün beynəlxalq təsisatlardan, ilk növbədə Dünya İrsi Fondundan maliyyə vəsaitlərinin cəlb edilməsində prioritetliyi təmin edir.

Bu əlamətdar hadisə həmçinin Azərbaycan xalqının dünya mədəniyyətinə verdiyi xüsusi töhfənin beynəlxalq müstəvidə növbəti təsdiqidir.

Ölkəmizdə beynəlxalq miqyasda tanınmasını gözləyən hələ çox mədəni irs obyektləri (Atəşgah, Naxçıvandakı türbələr, Xəzər sahilindəki tarixi istehkamlar və s.) var. Azərbaycan dövləti tərəfindən həyata keçirilən ardıcıl iş sayəsində ölkəmizin mədəni irs nümunələrinin UNESCO siyahısında sayı bundan sonra da artacaqdır.

# Daha yeddi mədəni irs məkanı dünya xəzinəsində

İyulun 7-də Bakı Konqres Mərkəzində UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası işini davam etdirdi.

İclası açan sessiyanın sədri, Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev hər kəsi salamladıqdan sonra bildirdi ki, ötən gecə dünya şöhrətli braziliyalı gitaraçı, bəstəkar, müğənni, bossa-nova musiqi janrının banisi Juan Julbertu vəfat edib. Sədr Braziliya nümayəndə heyətinə başsağlığı verdi. Tanınmış musiqiçinin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

### Portuqaliyanın iki tarixi abidəsi dünya irsinə çevrildi

Sonra sessiyada gündəliyə uyğun olaraq Portuqaliyanın təklif etdiyi Mafra Kral sarayı kompleksi haqqında nominasiya faylının müzakirəsi başlandı. 1737-ci ildə inşası başa çatmış tarixi-memarlıq kompleksi barədə məlumat verildi.





Dünya İrs Komitəsinin üzvlərindən Azərbaycan, Qvatemala, Uqanda, Tunis və başqa dövlətlərin təmsilçiləri təklifin düzgün hazırlandığını vurğuladılar, bir sıra tövsiyələr verdilər. Saray kompleksinin yaxşı vəziyyətdə saxlanıldığı qeyd edildi və Dünya irs siyahısına salınmasından sonra daha yaxşı qorunacağı vurğulandı. Qərar layihəsi tövsiyələr nəzərə alınmaqla qəbul edildi.

Müzakirəyə çıxarılan ikinci məsələ Portuqaliya ilə, bu ölkədəki dini-mədəni məkan – Braqa şəhəri yaxınlığındakı müqəddəs İsa dağı ziyarətgahı (Sanctuary of Bom Jesus do Monte) ilə bağlı idi. İCOMOS məruzəçisi məlumat verərək bildirdi ki, altı əsr əvvəl dağın zirvəsində inşa edilmiş kilsə və onun bufer zonasında iyirmi ildir ki, bərpa və konservasiya işləri davam edir.

Braziliya, Tunis, Zimbabve, İspaniya, Azərbaycan, Tanzaniya, Qvatemala və digər ölkələrdən çıxışçılar ziyarətgahın yerləşdiyi məkanın təbii şəraitinin də qiymətləndirilməsinin vacibliyini qeyd etdilər.

Nümayəndə heyətlərinin təklifləri qərar layihəsində nəzərə alınaraq düzəlişlər olundu və abidənin Dünya irs siyahısına salınması barədə qərar qəbul edildi.

Portuqaliya nümayəndə heyəti sessiyaya minnətdarlığını bildirdi, hər kəsi tolerantlığın hakim olduğu Braqa ziyarətgahına dəvət etdi.



### "Qədim Pskov abidələri" nominasiyası qəbul olundu

Növbəti məsələ Rusiyanın Pskov şəhərinin 10 kilsə və məbədinin siyahıya salınması ilə bağlı idi.

"Qədim Pskov abidələri" adlı nominasiyaya dair İCOMOS-un məruzəsi dinlənildi. Qeyd edildi ki, Rusiya şəhərsalma və pravoslav memarlığının ən qədim və gözəl nümunələrinin olduğu Pskov şəhərində hökumət tərəfindən kifayət qədər konservasiya tədbirləri görülmür. Müzakirələrdə çıxış edən Çin, Norveç, Macarıstan və digər ölkələr Pskov şəhərinin Dünya irs siyahısına salınmasının bu qədim şəhərin qorunması baxımından faydalı olacağını vurğuladılar.

Qərar layihəsi qəbul olunduqdan sonra Rusiya nümayəndə heyəti və Pskov vilayət hökumətinin rəsmi nümayəndəsi minnətdarlıq nitqi ilə çıxış etdilər.

### İspaniya və Britaniyanın irs nümunələri ilə bağlı müsbət qərar

Sessiyanın yeddinci günü daha iki nominasiya faylına baxıldı.

İspaniyanın təqdim etdiyi ilk insan məskənlərindən olan Risko Kaydo və "Qran Kanaria mədəni landşaftının müqəddəs dağları" (Kanar adalarında) haqqında nominasiya qısa müzakirələrdən sonra qəbul edildi.

Sonra Böyük Britaniyanın təqdimatı – Codrell-Bənk (Jodrell Bank) rəsədxanasına dair hesabat dinlənildi. Rəsədxananın konservasiya durumunun yaxşı olduğunu deyən məruzəçi bufer zonada aparılan tikinti ilə bağlı narahatlıq ifadə etdi.

Çıxış edən İspaniya, Norveç, Tunis, Kuba və s. ölkələrin nümayəndə heyətləri bu qədim elm ocağında bundan sonra da yeni elmi araşdırmaların aparılacağına əmin olduqlarını söylədilər.

Jodrell Bank rəsədxanası Dünya irs siyahısına daxil edildi. Qərar layihəsi qəbul olunduqdan sonra Böyük Britaniya nümayəndə heyəti sessiyaya minnətdarlıq etdi.

### İtaliya və ABŞ UNESCO-dakı siyahısını zənginləşdirdi

Günün ikinci yarısında baxılan növbəti məsələ İtaliyanın təqdimatı – bu ölkənin Konelyano-Valdobbyadene bölgəsindəki Prosekko təpələri ilə bağlı nominasiya oldu.

İCOMOS nümayəndəsinin hesabatında bildirildi ki, bu mədəni relyefdə XIX əsrdən bəri heç bir sənaye obyekti inşa edilməyib, hətta üzüm bağlarında bütün kultivasiya işlərini mexaniki qaydada aparırlar. Ötən sessiyada verilən tövsiyələr nəzərə alınıb, qorunan sahə 90 min hektara çatıb. Görülən tədbirlər əsas verir ki, nominasiya Dünya irs siyahısına daxil edilsin.





Müzakirə zamanı Tunis, Azərbaycan, İspaniya, Uqanda, Küveyt, Çin və digər ölkələr müsbət rəy verdilər. Qərar layihəsi ciddi dəyişiklik olmadan qəbul edildi.

Daha sonra Amerika Birləşmiş Ştatlarının təqdim etdiyi "Frenk Lloyd Raytın 20-ci əsr memarlığı" nominasiyası müzakirəyə çıxarıldı.

İCOMOS tərəfindən hazırlanmış hesabatda vurğulandı ki, məşhur memar Frenk Lloyd Raytın "orqanik memarlıq" üslubu nəinki ABŞ-da, dünya miqyasında memarlığa öz təsirini göstərib. Qısa müzakirədən sonra layihə düzəlişsiz qəbul edildi.

ABŞ nümayəndə heyəti söz alaraq əvvəlcə Azərbaycana qonaqpərvərliyə görə minnətdarlığını bildirdi və Frenk Lloyd Raytın irsinə ehtirama görə təşəkkür etdi.

### Son iki nominasiya ertələndi

Sessiyada baxılan son iki nominasiya Yamayka və Perunun təqdimatları idi.

Yamaykanın su altında qalmış Port Royal şəhəri ilə bağlı nominasiyası təkrar müzakirə olunurdu. 17-ci əsrdə salınmış şəhərin bir neçə il öncə təbii fəlakət nəticəsində su altında qalmış hissəsinin Dünya irs siyahısına salınması təklif olunub.

İCOMOS-un bu barədə hesabatında qeyd edildi ki, Port Royal şəhərinin həm su altında qalan, həm də torpaq üzərində qalan hissələri birləşdirilərək bir nominasiya kimi qarşıdakı sessiyalarda baxılmaq üçün təqdim edilsin. Yamayka heyəti İCOMOS-un mövqeyi ilə razılaşdığı üçün nominasiya təxirə salındı.

Panamanın tarixi rayonu – Amerika qitəsində Sakit okean sahilində Avropa tipli ilk şəhər olan Panama Vyexo şəhərinin xarabalıqları ilə bağlı nominasiya üçün də ertələnmə qərarı verildi.

İCOMOS üzv dövlətin bu nominasiyanı hərtərəfli əsaslandırıb növbəti sessiyaların gündəliyinə salmasını tövsiyə etdi. Geniş müzakirə yaranmadığı üçün qərar layihəsi qəbul edildi. İclasın sədri Əbülfəs Qarayev Panama nümayəndə heyətinə uğurlar arzuladı.

Bununla da Dünya irs siyahısı ilə bağlı təqdimatlara baxılması başa çatdı.

Müzakirələr bitdikdən sonra işçi qruplarının birgə qərarları, siyahıda olan nominasiyaları üzrə xırda düzəlişlərə dair qərarları nəzərdən keçirildi. Tailand və Myanmanın vahid ekoloji sistemindəki Kenq Kraçan meşələri ilə bağlı bir sıra məqamlar iki ölkə arasında və işçi qrupunda razılaşdırılaraq müvafiq qərar qəbul edildi. Daha sonra Dünya irs siyahısı daxil edilmiş nominasiyaların hüdudları ilə əlaqədar 13 kiçik dəyişiklik və düzəliş qəbul edildi.

İclasın sonunda üzv dövlətlərin məsvərət orqanları ilə müzakirələrdən sonra qəbul edilən bəyanatlar təsdiq edildi. Bu sənədlər əsasən ötən sessiyalarda üzv dövlətlərə verilmiş tövsiyələr əsasında tərtib olunub. Sənədlər geniş müzakirə edilmədən qəbul olundu.

**GÜLCAHAN**

# Mədəniyyət naziri bir sıra ölkələrin nümayəndələri ilə görüşüb

Mədəniyyət naziri Əbülfəs Qarayev Dünya İrs Komitəsinin 43-cü sessiyası günlərində bir sıra ölkələrin nümayəndələri ilə görüşlər keçirib. Görüşlərdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb, yeni əlaqələrin qurulması, mövcud əlaqələrin inkişaf etdirilməsi perspektivlərindən bəhs olunub.



### Braziliya ilə mədəni əməkdaşlıq müzakirə olunub

Nazir iyulun 5-də Braziliyanın mədəniyyət məsələləri üzrə katibi (nazir) Henrique Pires ilə görüşdü.

Əbülfəs Qarayev ölkəmizin mədəni irsi haqqında söz açaraq bildirdi ki, mədəniyyətimizin daha da inkişaf etdirilməsi və dünyada təbliği dövlətin əsas prioritetlərindən biridir. Bunun üçün müxtəlif layihələr həyata keçirilir, festivallar təşkil olunur. Nazir Azərbaycan və Braziliya arasında əlaqələrə toxunaraq, mədəniyyət, xüsusilə musiqi, kino sahəsində əlaqələrin inkişafının böyük perspektivləri olduğunu dedi.

Henrique Pires ölkəmizin zəngin mədəniyyəti ilə bağlı məlumatlı olduğunu bildirdi. O, Braziliyada Azərbaycan ədəbiyyatının ən gözəl nümunələrindən biri olan "Əli və Nino" romanının çox sevildiyini, əsərin portuqal dilində ikinci nəşrinin hazırlandığını diqqətə çatdırdı. Qonaq mədəniyyət sahəsində əlaqələrin inkişafında maraqlı olduqlarını qeyd edərək, bu xüsusda qarşılıqlı səfərlərin təşkilinin vacibliyini də vurğuladı.

### Yaponiya nümayəndə heyəti ilə görüş

Həmin gün nazir Əbülfəs Qarayev ilə Yaponiyanın Şizuoka prefekturasının qubernatoru Heita Kavakatsunun başçılıq etdiyi nümayəndə heyəti arasında görüş keçirildi.

Nazir Yaponiya nümayəndə heyətinin UNESCO-nun bu mötəbər tədbirində fəal iştirakına görə qonağa təşəkkürünü bildirərək, iki ölkə arasındakı münasibətlərə toxundu. Qarşılıqlı mədəni əlaqələrin inkişaf etdirilməsinin vacibliyi vurğulandı.

Heita Kavakatsu Azərbaycanın UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasına yüksək səviyyədə ev sahibliyi etdiyini vurğulayaraq ölkəmizə səfər çərçivəsində bir sıra tarixi məkanlara, o cümlədən Qobustan qoruğuna səfər etdiklərini dedi, mədəni irs nümunələrimizin onlarda dərin təəssürat oyatdığını bildirdi.

Söhbət zamanı Azərbaycan və Yaponiya arasında mədəniyyət sahəsində əlaqələrin inkişaf etdirilməsi üçün imkanlar olduğu qeyd edildi.

### Çin ilə mədəni əlaqələr üçün geniş imkanlar var

İyulun 6-da Çin Xalq Respublikasının Mədəni İrsin Qorunması üzrə Dövlət İdarəsinin rəhbəri Lyu Yoycoy ilə görüşən Əbülfəs Qarayev qonağa bu ölkənin təqdim etdiyi nominasiyanın Dünya irs siyahısına salınması münasibətilə təbriklərini çatdırdı.

Nazir Çin nümayəndə heyətinin UNESCO-nun bu mötəbər tədbirində fəal iştirakına görə təşəkkürünü bildirərək, iki ölkə arasındakı münasibətlərə toxundu. Qarşılıqlı mədəni əlaqələrin inkişaf etdirilməsinin vacibliyi vurğulandı.

Lyu Yoycoy Azərbaycanın Dünya İrs Komitəsinin 43-cü sessiyasına yüksək səviyyədə ev sahibliyi etdiyini vurğuladı. Qeyd etdi ki, növbəti sessiya Çində keçiriləcək və təşkilatçılıq baxımından Azərbaycanın təcrübəsini öyrənmək bizim üçün önəmlidir.

Söhbət zamanı Azərbaycan və Çin arasında mədəniyyət sahəsində əlaqələrin inkişaf etdirilməsi üçün geniş imkanlar olduğu qeyd edildi, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

***

Azərbaycan-Çin mədəni əlaqələri iyulun 7-də mədəniyyət naziri Əbülfəs Qarayevin bu ölkənin təhsil nazirinin müavini və UNESCO üzrə Milli Komissiyasının rəhbəri Tian Xuejun ilə görüşündə də müzakirə olundu.

Nazir Bakı sessiyasında Çin nümayəndə heyətinin fəal iştirak etdiyini vurğuladı.

Çinin Dünya İrs Komitəsinin 44-cü sessiyasına ev sahibliyi etmək istəyi bu ölkənin dünyada mədəni irsin qorunmasına töhfəsi kimi qiymətləndirildi.

Tian Xuejun Azərbaycanın Dünya İrs Komitəsinin 43-cü sessiyasına yüksək səviyyədə hazırlaşdığını bildirdi. Qeyd etdi ki, gələn il növbəti sessiyanı qəbul edəcək Çin bu sahədə Azərbaycanla əməkdaşlığa önəm verəcək.

### Burkina Faso Azərbaycanla mədəni əlaqələrdə maraqlıdır

Mədəniyyət naziri Əbülfəs Qarayev sessiyada iştirak edən Burkina Fasonun ali təhsil və elmi araşdırmalar naziri Alkasum Maiganın rəhbərlik etdiyi nümayəndə heyəti ilə də görüşdü.

Əbülfəs Qarayev iyulun 5-də bu ölkənin təqdim etdiyi nominasiyanın Dünya irs siyahısına salınması münasibətilə nümayəndə heyətini təbrik etdi. Nazirlər iki ölkə arasında münasibətlərin qurulması barədə söhbət apardılar.

Alkasum Maiga Azərbaycanla mədəni əlaqələrin qurulmasında, o cümlədən musiqi qruplarının qarşılıqlı səfərlərinin, film həftələrinin təşkil olunmasında maraqlı olduqlarını qeyd etdi.

# Braziliya nümayəndə heyətinin mətbuat konfransı

İyulun 7-də Bakı Konqres Mərkəzində Braziliyanın Parati mədəniyyəti və biomüxtəlifliyi ilə bağlı nominasiyasının Dünya irs siyahısına daxil edilməsi ilə bağlı mətbuat konfransı keçirilib.

Braziliyanın vətəndaşlıq nazirinin xüsusi katibi Henrique Pires bildirib ki, bu, onun Azərbaycana ilk səfəridir. Səfər çərçivəsində Şəkidə olduğunu bildirən qonaq bu qədim məkanın UNESCO-nun irs siyahısına salınması münasibətilə təbriklərini çatdırıb.

Braziliyanın UNESCO-dakı səfiri Maria Ediluza Bakıya artıq 4-cü dəfə səfər etdiyini deyib: "Çox gözəl ölkəniz, qonaqpərvər xalqınız var. Azərbaycan dövlətinə və xalqına təşəkkür edirəm ki, Braziliyanın UNESCO-da mədəni irsinin qəbuluna dəstək olub. Şəkinin Dünya irs siyahına daxil olunduğu sessiyada iştirakımdan məmnunam".

UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının baş katibi Elnur Sultanov qonaqların xoş sözlərinə görə təşəkkür edib. Ölkələrimizin UNESCO-da sıx əməkdaşlıq etdiklərini qeyd edən baş katib Braziliyanın nominasiyasının Dünya irs siyahısına daxil edilməsi münasibətilə təbriklərini çatdırıb.

## İrs vasitəsilə sülhün əldə olunması

İyulun 6-da Bakı Konqres Mərkəzində UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində İtaliyanın Romualdo Del Bianko Fondunun "İrs vasitəsilə sülhün əldə olunması" mövzusunda tədbiri keçirildi.




Tədbir yerli mədəni irs nümunələrinin yerləşdiyi ərazilərin dayanıqlı inkişafı üçün güclü mexanizmlərin yaradılması, yerli mədəni təzahürlərin təşviqi, mühafizəsi və inkişafına həsr olunmuşdu.

Dünya İrs Komitəsinin 43-cü sessiyasına sədrlik edən Azərbaycanın mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək sessiyada nominasiyaların qiymətləndirilməsi, siyahıya salınması istiqamətində məhsuldar müzakirələrin aparıldığını diqqətə çatdırdı. Bildirdi ki, İtaliya nümayəndə heyəti də bu sessiyada çox fəal iştirak edir.

Vurğulandı ki, Romualdo Del Bianko Fondu mədəni irs sahəsində uğurla fəaliyyət göstərir: "İrs vasitəsilə sülhün əldə olunması" ideyasını da dəstəkləyirik. Bu, dünyada sülhün əldə olunması baxımından olduqca vacib məsələdir".

Romualdo Del Bianko Fondunun baş katibi Simone Giometti, fondun vitse-prezidenti Şarlotta Del Bianko tədbirin əhəmiyyətindən danışdılar. Mədəniyyətlərarası dialoqun əldə olunması üçün irs nümunələrinin rolu, maddi və qeyri-maddi irs nümunələrinin istifadəsi və qorunub saxlanılması, mədəni irs nümunələrinin müxtəlifliyi ətrafında çıxışlar oldu. Çıxışlar zamanı turizmin mədəni müxtəlifliyə müsbət münasibətin təşviqində rolu, mədəni irs nümunələri barədə məlumat yaymaqla onlara kommersiya imkanları təmin edilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

**FARİZ**

# Sessiya çərçivəsində görüşlər

### Azərbaycan-Özbəkistan mədəni əlaqələri müzakirə olunub

İyulun 6-da Azərbaycan Respublikası Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva Özbəkistanın mədəniyyət nazirinin müavini Kamola Akilova ilə görüşüb.

Kamola Akilova dost ölkədə gördükləri səmimi qonaqpərvərliyə görə təşəkkürünü bildirərək Azərbaycan və Özbəkistan arasında əlaqələrdən söz açıb. O, iki ölkənin bir çox sahələrdə sıx münasibətlər qurduğunu deyərək mədəniyyət sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı fikirlərini diqqətə çatdırıb. Bildirib ki, Özbəkistan Mədəniyyət Nazirliyi Azərbaycanla birgə layihələr reallaşdırmaq niyyətindədir. Bunun üçün ikitərəfli memorandumun imzalanmasına ehtiyac var. Qonaq "Azərbərpa" Elmi Tədqiqat Layihə İnstitutunda da görüş keçirdiklərini, oradakı təcrübə ilə tanış olduqlarını vurğulayıb, bu istiqamətdə birgə sazişin imzalanması barədə düşündüklərini deyib.



Nazir müavini Sevda Məmmədəliyeva diqqətə çatdırıb ki, Özbəkistanın ikitərəfli mədəni əlaqələri daha da inkişaf etdirmək niyyəti məmnunluq doğurur və Azərbaycan tərəfi bu xüsusda lazım olan sənədlərin hazırlanmasına və layihələrin həyata keçirilməsinə hər zaman hazırdır. Qeyd olunub ki, Özbəkistanda Azərbaycanın Mədəniyyət Mərkəzi fəaliyyət göstərir və çoxsaylı layihələr həyata keçirir. Sevda Məmmədəliyeva Özbəkistanda ənənəvi olaraq keçirilən "Şərq tərənələri" festivalında Azərbaycan musiqiçilərinin uğurlu çıxışından da söz açıb.

Nazir müavini qarşılıqlı əlaqələrimizin qədim köklərə, mədəniyyətlərimizin ortaq dəyərlərə malik olduğunu vurğulayaraq bildirib ki, islam mədəniyyətinə malik, türksoylu xalqlar kimi hər zaman bir-birimizə yaxın olmuşuq. Bu gün əsas məqsədimiz gənclərimiz arasında mədəniyyətimizi təbliğ edərək bu qardaşlığı daha da inkişaf etdirməkdir.

### Beynəlxalq "İpək Yolu layihəsi"nin nümayəndə heyəti ilə görüş

Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva Dünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasında iştirak edən beynəlxalq "İpək Yolu layihəsi"nin nümayəndə heyəti ilə də görüşüb.

Görüşdə UNESCO Dünya İrs Mərkəzinin Asiya və Sakit okean ölkələri bölməsinin rəhbəri Feng Çinq, Çinin Cunqa Universitetinin Milli irs mərkəzinin direktoru, İCOMOS-un Çin bölməsinin vitse-prezidenti Lui Jo və Mərkəzi Asiya Araşdırmaları Beynəlxalq İnstitutunun direktoru Dmitri Voyakin iştirak edib.

Qonaqları salamlayan Sevda Məmmədəliyeva Azərbaycan mədəniyyəti haqqında söz açıb, tarixi İpək Yolunun mədəniyyətimizə təsirindən danışıb. Diqqətə çatdırıb ki, əsrlər boyu bu ticarət yolu ilə təkcə iqtisadi deyil, həm də mədəni əlaqələr inkişaf edib, mədəniyyətlərin mübadiləsi prosesi baş verib. Bu da İpək Yolu üzərində olan ölkələrin mədəniyyətinə öz təsirini göstərib, oxşar ənənələrin yaranmasına səbəb olub: "Hazırda biz bu oxşar elementlərlə bir-birimizi daha yaxşı başa düşürük və mədəniyyətlərarası dialoqa böyük töhfə vermiş oluruq. Bu baxımdan beynəlxalq "İpək Yolu layihəsi"nin inkişafı ölkələr arasında əlaqələrin gücləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir".

Görüşdə iştirak edən Azərbaycanın UNESCO üzrə Milli Komissiyasının baş katibi, səfir Elnur Sultanov ölkəmizin bu layihədə yaxından iştirak etməsində maraqlı olduğunu deyib, bunun üçün bir sıra praktiki əməkdaşlıq platformasının da müzakirə edildiyini vurğulayıb.

Daha sonra çıxış edən qonaqlar Azərbaycanın İpək Yolu üzərində, Xəzər sahili ölkələrlə əməkdaşlıq baxımından mühüm strateji mövqeyə sahib olduğunu diqqətə çatdırıblar. Bildirilib ki, Azərbaycanın bu layihədə yaxından iştirakı üçün ölkəmizə mütəmadi dəstək göstəriləcək.

# Dünya irs siyahısı yeni adlarla zənginləşdi

## Sessiyanın altıncı günü siyahıya 13 mədəni irs obyekti daxil edildi

əvvəli səh. 1-də

### Hindistanın Jaipur şəhəri Dünya irs siyahısına salındı

İclasda baxılan növbəti nominasiya Hindistanın Rajastan ştatındakı Jaipur şəhəri ilə bağlı idi. İCOMOS (Abidələr və Tarixi Yerlərin Mühafizəsi üzrə Beynəlxalq Şura) nümayəndəsi nominasiya ilə bağlı məlumat verdi.

Bildirildi ki, XVIII əsrin əvvəllərində əsası qoyulan şəhərin özünəməxsus memarlıq üslubu var. Hind, Moğol memarlığı və müasirliyi özündə birləşdirir.



Buna baxmayaraq, şəhərdə ənənəvi yaşayış mülkiyyət meyarları ilə bağlı əlavə tədbirlər görülməlidir. Burada qorunma planı adekvat deyil və yeni idarəçilik sisteminə ehtiyac var.

Dünya İrs Komitəsinə üzv dövlətlərin (komitənin 21 üzvü var) təmsilçiləri məsələyə dair fikirlərini bildirdilər. Braziliya faylı təsdiqlədiyini və şəhərin 9 orijinal darvazasının tarixi şəhər statusunu saxlamağa layiq olduğunu vurğuladı. Hindistan nümayəndəsi faylla bağlı ətraflı məlumatı diqqətə çatdırdı.

Norveç, Bəhreyn, Kuba, Azərbaycan, Küveyt, Zimbabve, Tunis və digər ölkələr təqdim edilən mədəni irsin xüsusiyyət təhlilləri ilə bağlı mülahizələrini söylədilər. Braziliya faylın yaradıcı dəyəri olduğu üçün nominasiyanın mətninə dəyişiklik edilməsini təklif etdi. Məsələ ilə bağlı geniş müzakirələr aparıldı.

Sessiyaya sədrlik edən nazir Əbülfəs Qarayev diqqətə çatdırdı ki, 14 ölkə Braziliyanın təklifinə səs verib. Beləliklə, faylın yeni mətninə əlavələr, memarlıq nəzarəti, hüquqi mühafizəni təkmilləşdirmək terminləri daxil edildikdən sonra nominasiya qəbul edildi.

Hindistan nümayəndəsi faylın qəbulundan qürur duyduqlarını bildirdi və təşəkkür etdi.

### İndoneziya, Yaponiya və Laosun abidələrinə də yaşıl işıq

Növbəti müzakirə mövzusu İndoneziyanın Savahlunto kömür mədəni irsi ilə bağlı nominasiya oldu. Müzakirələrdən sonra nominasiya siyahıya daxil edildi.

İndoneziya nümayəndəsi təşəkkürünü bildirərək dedi ki, bu irsin UNESCO siyahısına salınması və dünyada tanınması bölgəyə turistik marağın artmasına və yerli əhalinin rifahına da töhfə olacaq.

Sessiyada növbəti təqdimat Yaponiyanın təqdim etdiyi "Mozu Furuichi Kofun Gruop" – qədim yapon mədəniyyətini əks etdirən məzarlıqla bağlı idi. Osaka ovalığında yerləşən məzarlıq 1500 ildir ki, yerli əhali tərəfindən qorunur.

Müzakirələr zamanı İspaniya, Azərbaycan və Dünya İrs Komitəsinin digər üzvləri Yaponiyanın bu sahəyə göstərdiyi diqqəti təqdir etdi, yerli əhalinin mədəni irsinə münasibəti yüksək qiymətləndirildi. Nominasiya qəbul edildi. Yaponiya hökumətinin nümayəndəsi komitənin üzv dövlətlərinə minnətdarlıq etdi.

Daha sonra Laos Demokratik Respublikasının təqdim etdiyi Xienghuang tarixi ərazisi ilə bağlı nominasiya müzakirəyə çıxarıldı. Məruzəçi nominasiya ilə bağlı düzəliş və s. təklifin olmadığını bildirdi və təqdimat qəbul edildi.

Laos nümayəndəsi turizmin inkişafına böyük töhfə verən bu ərazinin Dünya irs siyahısına salınmasına görə komitə üzvlərinə təşəkkür etdi. Həmçinin sessiyanın yüksək səviyyədə təşkilinə görə Azərbaycan dövlətinə təşəkkür edərək bütün iştirakçı dövlətlərə və dünyaya sülh arzuladı.

### Myanmanın qədim Bagan şəhəri dünya irsi elan edildi

İyulun 6-da günün ikinci yarısında iclas Myanma tərəfindən təqdim edilən qədim Bagan şəhəri haqqında nominasiyanın müzakirəsi ilə davam etdi.

İCOMOS nümayəndəsi bildirdi ki, nominasiya hələ 1995-ci ildə təqdim olunub, 2001-ci ildə fayla yenidən qayıdılıb. Bagan (Pjaa Gjan) indiki Myanma ərazisində mövcud olmuş eyniadlı dövlətin (XI-XIII əsrlər) paytaxtı olub.

Qədim şəhərin yerləşdiyi ərazi Buddizm dininə aid abidələrlə zəngindir və Bagan sivilizasiyasını əks etdirir.

Ərazi bu gün buddistlərin zəvvarlıq məkanı kimi də fəaliyyətdədir. Buradakı arxeoloji zonada 3000-dən çox abidə, o cümlədən qədim monastırlar və s. var. Tarixi ərazidə 7 şəhər və 2 kənd yerləşir. 1975 və 2016-cı illərdəki zəlzələ nəticəsində buradakı abidələrin bir qisminə zərər dəyib.

Sonra üzv ölkələrin fikirləri dinlənildi. Uqanda, Çin, İspaniya qərar layihəsini dəstəklədiklərini vurğuladılar.

Müzakirələrdən sonra Myanmanın faylı qəbul edildi. Myanma nümayəndəsi təşəkkürünü bildirərək hər kəsi Bagan abidələri ilə tanış olmağa dəvət etdi.

### Daha bir nominasiya qəbul edildi, ikisi isə geri qaytarıldı

Gündəlikdəki növbəti məsələ olan Koreya Respublikasının "Seovon – Yeni Konfutsi Akademiyası" nominasiyası müzakirəyə çıxarıldı.



İCOMOS nümayəndəsi faylla bağlı məlumatla çıxış etdi. Bildirdi ki, Koreya tərəfi 2015-ci ildə bu qovluğu təqdim edib, amma o, bir sıra səhvlər olduğu üçün geri qaytarılıb. Hazırda qeyd edilən mülkiyyət ətraf mühitlə tam təmasdadır. Ərazi yeni Konfutsi ənənələrini ehtiva edir. Burada ilk Seovon təlim və inkişafının şahidi oluruq. İlkin dövrün memarlıq üslubu qorunaraq saxlanılıb.

Koreya Respublikasının nominasiya barədə məlumatında bildirildi ki, bu akademiya XVI-XVII əsrlərdə fəaliyyət göstərib və böyük tarixi ənənə yaradıb. Bu ənənə bu gün müasir təhsil sisteminin də inkişafında mühüm rol oynayır. Akademiya müasir Konfutsi təhsil sisteminin formalaşmasına güclü təsir göstərib. Müzakirələrdən sonra fayl qəbul edildi.

Daha sonra Avstriyanın təqdim etdiyi "Grossglokner – yüksək Alp dağları yolu" nominasiyası müzakirə edildi. Avstriyanın Zalsburq və Karintiya vilayətlərini birləşdirən, eyniadlı dağın adını daşıyan yol yüksək dağ silsiləsində milli park ərazisindən (48 km) keçir.

İCOMOS nümayəndəsi bildirdi ki, təqdimatda məkanla bağlı universal dəyər düzgün qiymətləndirilməyib. Burada ilkin (orijinal) yol genişləndirilərək divarlarda əlavə konservasiya işləri aparılıb. Nominasiyanın təxirə salınması tövsiyə edildi. Avstriya nümayəndəsi qərarla razılaşdıqlarını bildirdi və faylın təkmilləşdiriləcəyini dedi.

Növbəti sənəd qovluğunu – "Qədim Roma imperiyasının sərhədləri" adlı nominasiyasını Avstriya, Macarıstan, Almaniya və Slovakiya birlikdə təqdim etdi.

Bu qovluq da qızğın müzakirə doğurdu. Norveç və digər ölkələr bu nominasiyaya etirazlarını bildirdilər. Nəticədə nominasiya qəbul edilmədi.

### Kanadanın əyalət parkı və Çexiya-Almaniya dağ-mədən regionu haqqında qərar

Kanadanın təqdim etdiyi "Daşlar üzərində yazı" əyalət parkı ilə bağlı nominasiyanın müzakirələri zamanı bu ərazidə aborigen əhalinin adət-ənənələrinin qorunması ilə bağlı fikirlər səsləndi. Komitə üzvlərindən Çin, Tunis, Avstriya, Avstraliya bu nominasiyanı dəstəklədi və onun ərazidə qaradərili sakinlərin linqvistik hüquqlarının qorunmasına xidmət etdiyi vurğulandı.

Müzakirələrdən sonra fayl qəbul edildi. Ərazinin qaradərili icmasının nümayəndəsi nominasiya ilə bağlı əlavə addımların atılacağını diqqətə çatdırdı. O, ərazinin qədim mədəni irsinin gələcək nəsillərə çatdırılması üçün atılan bu addıma görə Dünya İrs Komitəsinə minnətdarlığını bildirdi.

Növbəti müzakirə Çexiya və Almaniyanın birgə təqdimatı – Ergebirge/ Krusnohori dağ-mədən regionu" nominasiyası üzrə aparıldı. Bildirildi ki, 2004-cü ildə bu nominasiya müzakirəyə çıxarılsa da, sonradan geri götürülmüşdü. İki ölkənin ərazisini əhatə edən bu mədənlə bağlı geniş iş aparılıb. 800 il yaxın tarixi olan bu mədəndə ötən dövr ərzində böyük dəyişikliklər olub. Nominasiya müzakirə olunduqdan sonra müsbət qərar qəbul edildi və ərazi Dünya irs siyahısına salındı.

Hər iki dövlətin nümayəndələri ev sahibliyinə görə Azərbaycana və müsbət qiymətləndirməyə görə komitəyə minnətdarlıq etdilər.




### Çexiya və Almaniyanın təqdim etdikləri iki nominasiya da təsdiqləndi

İclasda baxılan daha bir məsələ Çexiyanın təqdim etdiyi "Kladrubi nad Labem mərasim atlarının təlimi və yerləşdirilməsi" nominasiyası oldu.

Məlumat verildi ki, Kladrubi nad Labem indiki Çexiya ərazisində Pardubitse diyarında kiçik kənddir. Buradakı atçılıq zavodu Habsburq imperiyasında yaranmış (XVI əsr) fermer təsərrüfatının bir hissəsi olub və Avropada atçılığın inkişafına öz təsirini göstərib.

İCOMOS nümayəndəsi bildirdi ki, qərar layihəsində bufer zonası genişləndirilməli, yeni sənədlər hazırlanmalıdır. Bu faylla bağlı növbəti informasiyalar verilənə qədər yeni idarəçilik planı da hazırlanmalıdır.

Qırğızıstan, Kanada, Avstraliya, İspaniya və digər ölkələr formal hesabatlılıqla bağlı dəyişikliklərin təsdiqlənməsinin vacibliyini vurğuladılar və layihəyə müsbət baxılmasının tərəfdarı olduqlarını bəyan etdilər. Müzakirələrdən sonra nominasiya təsdiqləndi.

Daha bir təqdimat Almaniyanın hazırladığı "Auqsburq su idarəetmə sistemi" ilə bağlı nominasiya qovluğu oldu.

Bildirildi ki, yeddi əsrdən çoxdur bu sistemdən istifadə edilir. Faylla bağlı geniş qiymətləndirmə aparılıb, əsaslandırma əhatəli şəkildə qeyd olunub. Vurğulandı ki, Auqsburq su idarəetmə sistemi dayanıqlı sistemdir.

Dünya İrs Komitəsi üzvlərindən Çin, Azərbaycan, Tunis faylı dəstəklədilər. Müzakirələrdən sonra faylı siyahıya daxil edildi. Auqsburq şəhərinin meri peşəkar qiymətləndirməyə görə İCOMOS-a və faylın işlənməsində əməyi olan təşkilat qrupuna təşəkkür etdi.

### Polşanın Krzemionki qədim mədən regionu dünya irsi oldu

Sessiyanın altıncı iş günündə baxılan axırıncı məsələ Polşanın "Krzemionki qədim tarix mədən regionu" nominasiyası idi.

Əvvəlcə nominasiya ilə bağlı İCOMOS-un verdiyi tövsiyələr dinlənildi. Bildirildi ki, 78 hektar ərazini əhatə edən mədən sistemi tarixi baxımdan da əhəmiyyətlidir. Bununla belə, İCOMOS ərazinin bütövlüyünə şübhə yarandığını bildirdi. Vurğulandı ki, bufer zolağı və idarəçilik sistemi düzgün qurulmayıb, əlavə qoruma səviyyəsi təyin edilməyib.

Dünya İrs Komitəsinin üzv-ölkələrindən Bəhreyn, Azərbaycan, Çin və Tanzaniya sahənin müstəsna dəyərini qiymətləndirərək nominasiyanın yubadılmasına lüzum olmadığını bildirdi. Digər ölkələrin əlavə və tövsiyələri dinlənildi. Norveç nominasiyanın iki il sonra, 2021-ci ildə 45-ci sessiyada müzakirəyə çıxarılmasını təklif etdi. Lakin gərgin müzakirələrdən sonra fayl qəbul edildi.

Polşa nümayəndəsi ölkəsinin Mədəniyyət Nazirliyi adından Dünya İrs Komitəsinə sədrlik edən Azərbaycana və üzv ölkələrə təşəkkür edərək, sessiya iştirakçılarına ən xoş diləklərini çatdırdı.

**LALƏ**

# Yanardağda yoqa və poeziya axşamı

## İlin yeddinci ayının yeddinci günündə



İyulun 7-də "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunda "Söz" ədəbi layihəsi çərçivəsində yoqa və poeziya axşamı təşkil edilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.

Layihənin növbəti mövzusu söz, vücud və insan ruhu arasında xüsusi bir əlaqənin olduğunun nümayişinə həsr edilib.

Layihənin rəhbəri şairə Nigar Həsənzadə iştirakçılara təşəkkürünü bildirərək çıxışçıları təqdim edib.

Məlumat verilib ki, tədbirin yeddinci ayın yeddinci günündə təşkil olunması təsadüfi deyil. Bu, "7" rəqəminin mistik məna daşıdığını ehtiva edir. Bu axşam poeziya ilə yoqa vəhdət təşkil edəcək.

Yoqa hərəkətləri ilə iştirakçılar bu aləmə daxil olaraq meditasiyaya başlayıb, xüsusi hərəkətlərlə bədənin rahatlıq tapması üçün təbiətlə ünsiyyətə giriblər. Daxili tarazlıq və sabitlik bu ünsiyyəti mümkün edib.

Amsterdamda yaşayan həmyerlimiz Mira yoqa sessiyasını davam etdirərək qədim hind rəqsini nümayiş etdirib.

Sonra bədii hissə başlayıb. Firdovsi və Mehman Rəsulov qardaşları, Nigar Həsənzadə musiqi sədaları altında öz şeirlərini oxuyublar. Onların ardınca digər gənc şairlər Azərbaycan və rus dillərində şeirlər söyləyiblər.

Sonda Leyla Əliyeva öz şeirini oxuyub. İştirakçılar Leyla Əliyeva ilə xatirə şəkli çəkdiriblər.

Qeyd edək ki, ötən ildən Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşan "Söz" ədəbi layihəsi çərçivəsində silsilə tədbirlər, ədəbiyyat, incəsənət axşamları keçirilir. Layihənin məqsədi ölkəmizdə həm ana dilində, həm də xarici dillərdə yazıb-yaradan gənc ədəbi nəslin formalaşdırılması, gənc, istedadlı yazarların ortaya çıxarılması, cəmiyyətə tanıdılmasıdır.

# Qazaxıstan heyəti Bakıdakı Sənətkarlıq festivalına baş çəkib

Dünya İrs Komitəsinin Bakı sessiyası çərçivəsində Mədəniyyət Nazirliyinin dəstəyi ilə paytaxtın Nizami küçəsində 3-7 iyul tarixində keçirilən I Respublika Sənətkarlıq Festivalına xarici qonaqlar böyük maraq göstərib.

Festival çərçivəsində ölkəmizdə olan müxtəlif ölkələrin nümayəndələri, o cümlədən iş adamları, dövlət qurumlarının təmsilçiləri ilə görüşlər keçirilib, sənətkarlıq sahələrinin inkişafı ilə bağlı təcrübə mübadiləsi aparılıb.

İyulun 5-də Azərbaycanda səfərdə olan Qazaxıstan Respublikasının Türkistan Vilayətinin akiminin müavininin başçılığı ilə nümayəndə heyəti ilə görüş keçirilib.



Görüş zamanı sərgi ilə tanışlıq təşkil edilib, qonaqlara Azərbaycanın milli-mədəni irsi, xalq tətbiqi-dekorativ və təsviri sənət nümunələri haqqında məlumat verilib. Qazaxıstan nümayəndə heyəti ölkəmizdə mədəniyyətin inkişafına göstərilən qayğını təqdir edərək qarşılıqlı təcrübə mübadiləsi üçün əhəmiyyətli perspektivlərin olduğunu bildirib. Azərbaycan sənətkarları Qazaxıstanda təşkil ediləcək festival və sərgilərə dəvət edilib.

# Dünya İrs Komitəsinin 43-cü sessiyasında

## Beşinci iş gününün müzakirə və qərarları

UNESCO-nun Dünya İrs Komitəsinin Bakı Konqres Mərkəzində keçirilən 43-cü sessiyasında iyulun 5-də Dünya irs siyahısına nominasiyaların təqdimatı başlandı.



Sessiyanın sədri, Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev iclası açaraq müzakirə olunacaq nominasiyalarla bağlı məlumat verdi. Bildirdi ki, büronun qərarı ilə Avstraliya ilə Bəhreynin nominasiyalarının müzakirəsi 6 iyul tarixinə keçirilib.

Sonra Avstraliya, İspaniya, Norveç, Tunis, Finlandiya, Danimarka, İsveç, Andorra, İsveçrə və digər ölkələrin nümayəndələri çıxış edərək 43-cü sessiyanın işini yüksək səviyyədə təşkil etdiyinə görə Azərbaycan hökumətinə minnətdarlıqlarını bildirdilər. Dünya irsinin bütün bəşəriyyətə məxsus olduğunu söyləyən natiqlər qeyd etdilər ki, Bakı sessiyasında UNESCO-nun Dünya irs siyahısına daxil edilmək üçün verilən təqdimatlar da bunu sübut edir. Çıxışlarda vurğulandı ki, obyektiv və elmi cəhətdən əsaslandırılmış qərarlar qəbul edilməlidir. Mövcud münaqişələrin milli irsə dağıdıcı təsirinin nəzərə alınması, dünya mədəni irsinin tarazlığının qorunması istiqamətində ciddi işlər görülməsinin vacibliyi bir daha diqqətə çatdırıldı.

Bildirildi ki, öncə təbiət, sonra qarışıq (təbiət və mədəni), sonda isə mədəni irs nominasiyalarına baxılacaq.

Təbiət abidələrindən ilk olaraq Çinin təqdim etdiyi nominasiya – Sarı dənizin sahilində Bohai boğazında miqrasiya edən köçəri quşların təbii sahəsinin Dünya irs siyahısına salınması məsələsi müzakirəyə çıxarıldı. Bu nominasiyanı 18 ölkə dəstəklədi. Beləliklə, Çin və Koreya yarımadası arasında yerləşən bu dəniz sahilində miqrasiya edən köçəri quşların təbii sahəsi Bakı sessiyasında dünya irsi statusu qazanan məkan oldu.

Sonra İran İslam Respublikasının təqdim etdiyi Hirkan meşələri ilə bağlı nominasiya müzakirə olundu. Təbiətin Mühafizəsi naminə Beynəlxalq İttifaqın (IUCN) nümayəndəsi məlumat verdi ki, Hirkan meşələri İranın şimalında Xəzər dənizi sahili boyunca 1 milyon hektardan çox ərazini əhatə edir. Bu meşələrin bir hissəsi Azərbaycana, digəri isə Türkmənistana qədər uzanır. Bu meşələrdə 300-ə yaxın heyvan növü, o cümlədən yoxa çıxmaqda olan heyvanlar yaşayır, 500 növə yaxın quş məskən salıb və ərazinin qorunması vacibdir.

Azərbaycan nümayəndə heyəti İranı nominasiya münasibətilə təbrik etdi. Eyni zamanda diqqətə çatdırıldı ki, ölkəmiz də bu istiqamətdə konservasiya tədbirləri görüb, Hirkan Milli Parkı yaradılıb. Hirkan meşələrinin birgə nominasiya kimi təqdimatı həmsərhəd ölkələrin əməkdaşlıq nümunəsi ola bilərdi. Xatırladaq ki, Hirkan qoruğu 2012-ci ildə Azərbaycan tərəfdən "Dünya irsi üçün ilkin siyahı"ya təqdim edilib.

Müzakirələrdən sonra Hirkan meşələrinin İrana aid hissəsi Dünya irs siyahısına salınıb. Qeyd olunub ki, gələcəkdə Azərbaycan da bu nominasiyaya qoşula bilər. İran nümayəndəsi Azərbaycanla bu istiqamətdə işləməyin mümkünlüyünü vurğulayıb.

Günün müzakirə edilən növbəti nominasiyası Tailandın irəli sürdüyü Ken Kraçan Milli Parkı ilə bağlı fayl olub. Müzakirələrdə bu faylla bağlı iradlar bildirilib və üzv ölkələrin nümayəndələrindən ibarət işçi qrup yaradılıb.

***

İyulun 5-də günün ikinci yarısında nominasiyaların müzakirəsi davam etdi.

İlk məsələ Fransanın Cənub əraziləri və dənizləri məsələsi idi. Üzv ölkənin təmsilçiləri bildirdilər ki, həmin ərazidə insan məskəni olmasa da, ərazidə yaşayan vəhşi heyvanların nəslinin kəsilməsi təhlükəsi yaranıb. Norveç, Avstraliya, Qvatemala, Tunis nümayəndələri çıxış edərək Fransanın sənəd qovluğunun mükəmməl hazırlandığını və bu məsələni vaxtında araşdırıb təqdim etdiyini vurğuladılar. Sənəd etirazsız qəbul edildi.

İslandiyadakı Vatnayyökyüdl – "Buz və od ölkəsi" milli parkının siyahıya alınması məsələsi də müzakirəsiz qəbul edildi.

Təbiət abidələri ilə bağlı məsələlər bitdikdən sonra qarışıq (mədəni və təbiət) abidələrin müzakirəsi başladı.

Albaniyanın Ohrid yarımadası ilə bağlı təklifi müzakirəyə çıxarıldı. İUCN və İCOMOS (Abidələr və Tarixi Yerlərin Mühafizəsi üzrə Beynəlxalq Şura) məruzəçiləri Şimali Makedoniya və Albaniyanın coğrafi ərazisinə daxil olan Ohrid gölü və yarımada ilə bağlı hesabat xarakterli çıxışlar etdilər. Bildirildi ki, dəmiryolunun çəkilməsi, turizmin geniş inkişafı ilə əlaqədar regionda təbii fəlakət və mədəni abidələrin məhvi təhlükəsi yarana bilər.

Macarıstan təklif etdi ki, hər iki üzv dövlət birlikdə çalışsın və gələn il Ohrid gölü və ətrafının təhlükədə olan irs siyahısına daxil edilməsi üçün təklif hazırlasınlar. Məsələ ətrafında Norveç, Çin, Braziliya, Küveyt nümayəndələri çıxış etdilər. Qərar layihəsi bir sıra düzəlişlərdən sonra qəbul edildi.

Braziliyanın Parati mədəniyyət və biomüxtəliflik mülkiyyətinin Dünya irs siyahısına salınması ilə bağlı təqdimatı isə irad olmadan qəbul edildi. Hesabat dinlənildikdən sonra Qvatemala, Çin, İspaniya və digər ölkələrin təmsilçiləri Braziliyanı belə bir addım atdığı üçün təqdir etdilər. Parati şəhəri Braziliyadan ilk qarışıq irs nümunə olaraq siyahıya daxil edildi.

Bununla da 43-cü sessiyada qarışıq abidə siyahısına salınacaq mülkiyyətlərin müzakirəsi başa çatdı.

### Mədəni irs abidələri ilə bağlı ilk iki təqdimat

Dünya İrs Komitəsi 43-cü sessiyasının beşinci iş gününün son bölümü Dünya irs siyahısına təklif edilən mədəniyyət abidələri ilə bağlı təqdimatlara həsr olundu.

Bu sırada ilk müzakirə edilən Burkina Fasodakı qədim metallurgiya sobaları məsələsi idi. Anqola nümayəndəsi Burkina Fasonu Afrika sivilizasiyası abidəsinin Dünya irs siyahısına təklif etməsi münasibətilə təbrik edərək yerli əhalini bu qədim istehsalını davam etdirməyə çağırdı. Sənəd yekdilliklə təsdiq edildi.

Növbəti mövzu 1983-cü ildə arxeoloji qazıntılar zamanı aşkar edilmiş qədim Babil şəhəri (İraq) qalıqlarının Dünya irs siyahısına daxil edilməsi oldu. Bu məsələdə fikirlər haçalandı: Babil qalasının Təhlükədə olan abidələr siyahısına salınması təklif edildi. 1050 hektar ərazini əhatə edən Babil abidəsinin yaxınlığında illər əvvəl hərbi bazanın yerləşdiyi xatırlandı. Babil qalasının konservasiya işlərini qaydaya salmaq üçün İraq hökumətinə vaxt vermək təklif edildi. Ərazinin 80 faizinin hələ də torpaq altında olduğu da diqqətə çatdırıldı. Abidənin dünya əhəmiyyətli olması nəzərə alınaraq burada İraq hökuməti ilə beynəlxalq təşkilatların da birgə çalışması, bufer zonasının hüdudlarının yenidən nəzərdən keçirilməsi tövsiyə edildi. Qərar layihəsi verilən təkliflər nəzərə alınmaqla təsdiq edildi.

İclasa sədrlik edən Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev sessiya iştirakçılarına bu məsələyə böyük diqqət göstərdiklərinə, bəşər tarixinə həssas münasibətə görə minnətdarlığını bildirdi.

**LALƏ GÜLCAHAN**

# Diplomatik xidmət orqanlarının yaradılmasının 100 ili qeyd olunub

İyulun 9-da Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının yaradılmasının 100 ili tamam olub. 1919-cu il iyulun 9-da Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyi diplomatik fəaliyyət haqqında ilk normativ sənədi – XİN-in katibliyi haqqında müvəqqəti təlimatı təsdiq edib. Bu, Azərbaycanda peşəkar diplomatiya fəaliyyətini tənzimləyən ilk sənəddir. Prezident İlham Əliyevin 24 avqust 2007-ci il sərəncamı ilə 9 iyul Azərbaycanda diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü elan edilib.




1919-cu ildə Bakıda 16 xarici dövlətin, o cümlədən ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, İsveç, İsveçrə, Belçika, İran, Polşanın diplomatik nümayəndəlikləri fəaliyyət göstərib.

1922-ci il dekabrın 30-da SSRİ-nin yaradılması haqqında müqavilə imzalandı. Azərbaycanın müstəqil xarici siyasət fəaliyyəti tamamilə dayandırıldı. 1923-cü il oktyabrın 8-də Azərbaycan SSR Xalq Komissarları Sovetinin müvafiq əmri ilə, Türkiyə və İran istisna olmaqla, Azərbaycanda fəaliyyət göstərən bütün diplomatik nümayəndəliklər ləğv edildi. Yalnız İkinci Dünya müharibəsinin sonlarına yaxın – 1944-cü ildə sovet hakimiyyəti özünün geniş strateji maraqlarını əsas götürərək digər respublikalarla yanaşı, Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığını da yaratdı. Lakin bu orqan uzun illər boyu yalnız formal mövcud oldu.

1991-ci il oktyabrın 18-də Azərbaycan müstəqilliyini bərpa etdikdən diplomatiya tariximizin yeni dövrü başlandı. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra, daxili sabitliyin bərqərar olunması ilə yanaşı, Azərbaycanın beynəlxalq münasibətlərində yeni səhifələr açıldı.

Ulu öndərin xarici siyasət xətti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmiz milli maraqlara əsaslanan müstəqil, çoxşaxəli, balanslı və fəal xarici siyasət yeridir.

Hazırda Bakıda 66 ölkənin və 11 beynəlxalq təşkilatın diplomatik missiyaları fəaliyyət göstərir. Eyni zamanda Azərbaycanın xaricdə 59 səfirliyi, beynəlxalq təşkilatların yanında 5 daimi nümayəndəliyi və 9 baş konsulluğu ölkəmizi təmsil edir.

***

İyulun 8-də ADA Universitetində Azərbaycanın diplomatik xidmətinin 100 illiyinə həsr edilən beynəlxalq konfrans keçirilib.

Xarici işlər nazirinin müavini, universitetin rektoru, səfir Hafiz Paşayev tədbiri açaraq qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti çətin bir tarixi yol keçib. Həmin illərdə diplomatlarımız ölkəmizin tarixində müstəsna rol oynayıb. Müasir diplomatiyamızı da həyata keçirmək asan olmayıb. Ulu öndər Heydər Əliyev ən böyük diplomatımız olaraq, ölkəmizin həyatında müqayisəyəgəlməz rol oynayıb.

Konfrans çərçivəsində "Azərbaycanın xarici siyasəti: XX əsrdə tarixi inkişaf" və "Müasir Azərbaycan və xarici siyasət prioritetləri" mövzularında panellərdə çıxış və məruzələr dinlənilib.

# Sessiyanın mədəni proqramında sənət axşamı

Xəbər verdiyimiz kimi, Dünya İrs Komitəsinin 43-cü sessiyası üçün zəngin mədəni proqram tərtib olunub.



İyulun 5-də Heydər Əliyev Sarayında Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin nəzdində fəaliyyət göstərən Qədim musiqi alətləri ansamblının konserti keçirilib.

Konsertdən əvvəl ansamblın yaranma tarixi haqqında videoçarx nümayiş olunub. Bildirilib ki, kollektiv 1996-cı ildə professor, sənətşünas alim Məcnun Kərim tərəfindən yaradılıb. Ansambl ölkəmizi dünyanın bir çox şəhərlərində uğurla təmsil edib. Hazırda ansamblın bədii rəhbəri Xalq artisti Munis Şərifovdur.

Konsertdə ansamblın solistləri – Xalq artisti Teyyub Aslanov və Əməkdar artist Nuriyyə Hüseynova xalq və bəstəkar mahnıları, qədim Şərq musiqilərindən ibarət proqramla çıxış ediblər. Muğamlarımızla bərabər, Şərqin musiqi inciləri də səslənib.

Musiqi axşamında iştirak edən hər kəs bu rəngarəng seçimdən məmnun qalıb və konsert proqramı alqışlarla qarşılanıb.

**L.AZƏRİ**

# "Bakıda qəbul edilən qərar bizim üçün böyük uğurdur"

"Mədəni irs nümunələri ilə zəngin Azərbaycanın UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi etməsi olduqca əhəmiyyətlidir. Bakıda olmaq bizim üçün çox xoşdur".

Bu sözləri sessiyada iştirak edən Çinin Yançenq Şəhər Bələdiyyəsinin sədri Cao Lubao deyib.

O vurğulayıb ki, iyulun 5-də sessiyada Çinin təqdim etdiyi nominasiya – Sarı dənizin sahilində Bohai boğazında miqrasiya edən köçəri quşların təbii sahəsi Dünya irs siyahısına salınıb: "Bu nominasiyanı 18 ölkə dəstəklədi. Dünya İrs Komitəsinin Bakı sessiyasında qəbul edilən bu qərar bizim üçün böyük uğurdur".

# “Qrammofon” poeziya gecəsi

İyulun 5-də UNESCO-nun Dünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyası münasibətilə Səməd Vurğunun ev-muzeyində “Qrammofon” poeziya gecəsi keçirildi. Gecə Xalq şairi Vaqif Səmədoğluna həsr olunmuşdu.



Tədbiri muzeyin direktoru Nüşabə Babayeva-Vəkilova açaraq şairin təkrarsız yaradıcılığından söz açdı. Bildirdi ki, Vaqif Səmədoğlu yaradıcılığı poetik sanbalına görə çağdaş poeziyamızda ayrıca bir qoldur. Onun ilk şeirləri mətbuatda dərc olunanda birmənalı qarşılanmayıb. Ancaq çox keçmir ki, şeirləri ədəbiyyat mühitində qəbul və təqdir olunur. Vaqif Səmədoğlu şeiri məzmun və formaca bütün zamanlarda yenidir”.

Gecənin aparıcıları aktyor Kamran Yunis və bədii qiraət ustası Xəzər Süleymanlının ifasında Vaqif Səmədoğlunun müxtəlif illərdə yazdığı şeirlər səsləndirildi. Çıxışlar alqışlarla qarşılandı.

Ev-muzeyin direktoru Nüşabə Babayeva-Vəkilovanın sözlərinə görə, “Qrammofon” poeziya gecəsi layihə kimi davam edəcək və hər ay bir şairin yaradıcılığına həsr olunacaq.

**S.FƏRƏCOV**

# Koreyalı qonaqlar Rostropoviçlərin ev-muzeyində

Dünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak edən Koreya Respublikasının nümayəndə heyəti Bakıda Leopold və Mstislav Rostropoviçlərin ev-muzeyini ziyarət edib.



Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Şeyla Heydərova qonaqlara M.Rostropoviçin həyat və yaradıcılığı barədə məlumat verib. Həmçinin Azərbaycan violonçel ifaçılığı məktəbi haqqında söz açılıb. Qonaqlar 2012-ci ildə Ş.Heydərovanın redaktorluğu ilə ərsəyə gələn “Azərbaycan bəstəkarlarının violonçel və fortepiano üçün əsərləri” toplusu ilə də tanış olublar.

Nümayəndə heyəti muzeyin ekspozisiyasının zənginliyindən məmnun qalıb.

# “Azərbaycan hər zaman darıxanda getmək istədiyim doğma yer kimi mənə əzizdir”

Türkiyənin Azərbaycandakı keçmiş səfiri, hazırda Türk Dünyası Parlamentlər Birliyinin (TDPB) xarici əlaqələr üzrə baş koordinatoru olan Hulusi Kılıç bu günlərdə Azərbaycana səfər edib. Ölkəmizdə müxtəlif görüşlər keçirib, tədbirlərə qatılıb, o cümlədən mədəniyyət tədbirlərində iştirak edib. Onunla söhbətimiz səfər təəssüratı ilə bağlı oldu.



- Hər yerdə deyirəm ki, can Azərbaycan mənim ikinci vətənimdir. Orda mənim çox dəyərli dostlarım var. Bu ölkədə beş ilə yaxın səfir oldum. İçimdə belə bir hiss var ki, Azərbaycan ürəyimin yarısıdır, ruhum daima o torpaqlardadır. Sanki bu bir alın yazısıdır. Xanımımın adı da Azərbaycan mənşəlidir. Çünki Günay adı Türkiyədə az rast gəlinən adlardandır. Azərbaycan sanki mənim doğulduğum, böyüdüyüm bir yerdir. Azərbaycana gedərkən orada həm uşaqlığımı, həm də gəncliyimi yaşayıram. Anadoluda bir kənddə çoxuşaqlı ailədə doğuldum və kənd uşağının həyatını yaşadım. Ailədə 10 uşaq – 5 bacı, 5 qardaş olmaqla yanaşı, həm də çoxlu qohumlarımız var. Ona görə də bu həyatı şəxsi zənginliyim olaraq qəbul edirəm. Çünki həyata kənddən, torpaqdan başlamaq daha gözəldir. Belə olduqda kənd həyatını da, şəhər həyatını da yaxşı bilirsən və bütün bunlar geniş təcrübə qazandırır insana. Demək istəyirəm ki, Azərbaycan hər zaman darıxanda getmək istədiyim doğma yer kimi mənə əzizdir.

**- Azərbaycana qarşı olan sevginiz qarşılıqlıdır. Hər halda bu da sizə stimul verir...**

- Azərbaycan insan dəyərlərinin çox olduğu yerdir. Çox gözəl vaxt keçirirəm orda. Bütün təbəqələrdən olan insanlarla görüşməyə çalışıram. Çünki səmimiyyəti xoşlayıram, hər kəsə yaxınam. Mən orada beş ilə yaxın səfir kimi çalışdım, amma geriyə döndükdən sonra da əlaqəmi kəsmədim. Azərbaycan Prezidenti İlham Əliyev mənə orden verəndə dedim ki, harada olmağımdan asılı olmayaraq mən bir millətin səfiri olaraq çalışacağam. Məsələn, Moldovada da səfir kimi çalışarkən Azərbaycanın Moldovadakı səfirliyi ilə birlikdə gözəl işlər həyata keçirirdik.

**- Bakıda səfir işləyərkən mədəniyyətə böyük dəyər verirdiniz. Azərbaycan mədəniyyət və incəsənət nümayəndələrinin bir çoxu sizin tədbirlərə qatılırdı. Bu dəfə də mədəniyyət tədbirlərinə qatıldınız. Bu mənada mədəniyyət sizin üçün nəyi ehtiva edir?**

- Mədəniyyət bizim kimliyimizdir. Mədəniyyət çox önəmlidir və ona sahib çıxmaq lazımdır. Eyni zamanda da onun təmsilçilərinə dəyər vermək gərəkdir. O üzdən Azərbaycana səfər edərkən fürsət tapıb belə tədbirlərə qatılıram. Məsələn, bu dəfə tanınmış rəssam, Türkiyənin Yedditəpə Universitetində çalışan Teymur Rzayevin 60 illik yubiley tədbirində iştirak etdim və o da bundan məmnun oldu.

Bu, çox maraqlı yubiley tədbiri idi. Beynəlxalq Muğam Mərkəzində keçirilən mərasimdə Azərbaycan Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral iştirak edirdilər. Belə bir tədbirdə iştirak etdiyim üçün özümü çox şanslı hiss edirəm. Teymur bəyin nə qədər böyük rəssam olduğunu gördüm, qürur duydum. Onu da qeyd edim ki, Bakıya budəfəki səfərimdə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva ilə də görüşdük, mədəniyyət mövzusunda maraqlı fikir mübadiləsi apardıq. Şəhid ailələri ilə bağlı tədbirdə çıxış etdim. İştirak etdiyim maraqlı tədbirlərdən biri də Azərbaycan Daxili İşlər Nazirliyinin 101-ci ildönümünə həsr edilmiş tədbir idi.

**- Azərbaycana səfər zamanı bütün dost və tanışlarla görüşə bilirsinizmi?**

- Təəssüf ki, hər biri üçün vaxt çatdıra bilmirəm. Mənə deyirlər ki, bir həftə azdır, gələndə iki həftə qalın. Amma iki həftə də yetməz. Bilirsiniz, məni əvvəldən tanıyan, fəaliyyətimi izləyən insanlar var. Bilirlər ki, əvvəl mövqeyim necə olubsa, indi də elədir. Mən hər şeydən öncə bir türk milliyyətçisiyəm, Azərbaycan milliyyətçisiyəm. Həyat devizim belədir: Azərbaycan üçün çalışmaq Türkiyə üçün çalışmaq, Türkiyə üçün çalışmaq Azərbaycan üçün çalışmaqdır. Azərbaycan Prezidenti İlham Əliyev deyir ki, bir millətin iki diasporu olmaz. Bunun üzərində işləmək lazımdır. Hər zaman diasporumuzun çox güclü olmasını istədim. Biz gücümüzü birləşdirəcəyik.

**Mehparə SULTANOVA**
**Ankara**

# Bülbülün memorial muzeyində tədbir

Bülbülün memorial muzeyində də UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası ilə bağlı tədbir keçirilib.

Tədbirdə əvvəlcə Bülbülün həyat və yaradıcılığını əks etdirən film ingilis dilində subtitrlə nümayiş olunub.

Sonra “Minsk 2014” və bir neçə beynəlxalq müsabiqələr laureatı Seyidxanım Babayevanın ifasında klassik əsərlərdən ibarət konsert keçirilib.



# ANA DİLİmizin –

## ATA isim-sifətlərindən, “əzəl mübtəda”larından Əbdüləzəl Dəmirçizadə...

**Bu bir yazı ki – “mürəkkəb” və “sadə”...**

“Mürəkkəb”liyi onda ki, gərək, bu informasiya və şou-mou burulğanı əsrində elmi-tədrisi kitabları oxumağa macal tapmayan oxuculara bu çaplı isimləri də yaxşı tanıtmaq üçün dürlü-girli frazalar, tərkiblər, cümlələr kəşf edib işlədəsən. Heç də asan olmayan bu məsələdə “kasıbın olanından” ritorikası ilə ərz edək ki, əgər bu qəbil alimlərimiz olmasaydı, beynəlxalq konfrans-konqres-simpoziumlarda yalnız “Azərbaycan xalqı”, “Azərbaycan “ağ qızıl-qara qızıl”ı” (və s.) işlədilər, millətin varlığını təsbit-sübut edən üç əsas atributdan biri – “DİL” (“Azərbaycan dili”, “Azərbaycan dilçiliyi”) fəxarəti isə…

Anadan olmasının 110 ili tamamlanan bu görkəmli alimin həm elmi-metodoloji, həm xəlqi-“folkloroloji”, poetik-estetik, müəzzəm-mükəmməl mühazirələrinin ikicəsində iştirakıma, haqqında eşitdiklərimə, oxuduqlarıma, az-çox bələd olduğum tərcümeyi-halına, son dərəcə orijinal mütəxəssisi olduğu dilçiliyə baxış-havadarlıq qalmaqallarına binaən, hələ sağlığında belə bir qənaətə gəlmişdim; “lalın dilini anası bilər”, dilin dilini Dəmirçizadə...

Sovetlər dönəmində görkəmli dilçilərimizin köklü-köməcli tədqiqatları sayəsində (və bir az da “ikinci ana dilimiz”in acığına!) Azərbaycan dilçiliyinin elmin digər sahələrinə nisbətən daha mükəmməl inkişaf səviyyəsinə yetməsi faktı, az-çox milli-vətəndaş duyğusu olan hər kəsə bəlli idi. Ovaxtlar “universitet” adını yalnız bir ali məktəbimiz daşıyırdı və həmin ADU (BDU) tələbələrindən heç biri etiraf etməyə bilməz ki, institutlarda oxuyanlara yuxarıdan aşağı baxmırmış. Lakin biz kursdan-kursa keçdikcə, həmin ali məktəblərdə də bütün ölkə nüfuzlu tədris-təhsil personalarının çalışdığından xəbərdar olunca, hətta “dillər əzbəri dilçi Dəmirçizadə”nin 1943-cü ildə ADU-nun Azərbaycan dilçiliyi kafedrasına rəhbərlikdən APİ-nin eyniadlı kafedrasına müdir getməsini bilincə, bu “forsumuz” eyforik zildən poetik bəmə endi. Maraq-soraqlandıqca, bu da bəlləndi ki, bu alim elitar kuluarlarda “Azərbaycan dilçilik elminin ÜÇlüyü” (Məmmədağa Şirəliyev – Əbdüləzəl Dəmirçizadə – Muxtar Hüseynzadə) şərəfnaməsilə yad edilir. Elə indinin özündə də. Nümunə olaraq, professor, Əməkdar elm xadimi Qəzənfər Kazımovun bir müddət öncə orfoqrafiya qaydalarının yenidən nəzərdən keçirilməsilə bağlı müzakirələrə dair çap etdirdiyi məqaləsindən bir parçaya diqqət yetirək. Məsələyə “...Həə, balam, bu dilçilərdən nə istəyirsiniz? ...Dilçi – fəhlədir. Sən onun yazdığı kitablarla böyüyüb – alim, şair, MM üzvü olmusan” kimi ictimai tutumlu replikalarla ayaq verən müəllif öz fikirlərini belə bir “tapşırma” ilə bitirir: “Belə çətin günlərdə Əbdüləzəl Dəmirçizadə, Muxtar Hüseynzadə, Məmmədağa Şirəliyevlər sözünə ehtiyac duyulur…”

Ötən minillik önlərində boy vermiş türkologiya öndəri Mahmud Kaşğari dünyasından su içib, Azərbaycan dilçiliyində yeni bir dalğa yaratmış bu alim repressiya qurbanlarından Bəkir Çobanzadə və Abdulla Tağızadənin yarımçıq qoyduğu işlərin davamçısı oldu. Yorulmaz tədqiqatçı “Azərbaycan dili tarixi xülasələri”, “M.F.Axundov dil haqqında və Axundovun dili”, “Azərbaycan dilinin tarixi”, “Azərbaycan ədəbi dilinin inkişaf yolları”, “Kitabi-Dədə Qorqud” dastanının dili”, “Azəri ədəbi dilinin tarixi” kitabları ilə min illik “dil yolu” qət etdi. Bu yolda “Bəziləri “ədəbi dil” dedikdə yalnız yazılı dili qəbul etmiş və bu, “yazısı olmayan xalqın ədəbi dili ola bilməz”, yaxud bu və ya digər xalqın ədəbi dil başlanğıcının yazıya malik olduğu dövrdən hesablanması kimi yanlış anlayışlar yaratmışdır” qəbilli yüksək elmi “ov”lar etdi.

Bu alimin ən irihəcmli və çox dəyərli əsərlərindən olan “Azərbaycan dilinin tarixi” haqda akademik E.Struvenin çox maraqlı fikirlərinə qüvvət verən akademik İ.Meşşaninov yazır: “Bu əsərin müəllifi heç bir ciddi sələfə malik olmadan, birinci dəfə Azərbaycan dilinin ən qədim dövrlər tarixini verir. Əlbəttə, madam ki, tarixçi ölkənin ümumi tarixini yazır, dilçi də bu vəzifəni bu sahədə öhdəsinə götürməlidir...”

**...Bu gün –**

geninə-boluna işlətdiyimiz, dünya dilləri içərisində səlislik-gözəllik-zərifliyinə görə fəxarətləndiyimiz dilimizin bu “ara-ərsəyə” gəlməsində ayrıca-özəl xidmətləri olmuş professor Ə.Dəmirçizadənin 40 illik yaradıcılıq işinin bəhrəsi olan monumental “Azərbaycan ədəbi dili tarixi” ədəbi dilimizin həqiqi tarixini üzə çıxarmaq sahəsində ən qiymətli kitab, bütün türk xalqları, ümumən türkologiya üçün ümumnümunə sayılır.



Bu örnək-kitab dilimizin tarixinin xalqımızın tarixilə vəhdətdə öyrənilməsi nümunəsidir. Buradakı elmi qənaətlər dilimizin tarixilə bağlı həqiqi-özgür fikirləri ehtimallar-şübhələrdən xali bir məntiqlə doğrultmaqda, müəllifin sağlığı dövründə bəzi “sağolmuşlar”ın “əməl-feil”i iradlarını, cılızca “cikçə-cükçə” müddəalarınısa zər-qızılca əyarla təkzib etməkdə...

Bu dəm vurğulayaq ki, “Ə.Dəmirçizadə nailiyyətləri”nin fövqündə duran əsər kimi qiymətləndirilən “Müasir Azərbaycan dilinin fonetikası” kitabı dilçiliyimizin qızıl fonduna daxil edilib. Dilçi mütəxəssislər məntiqi mühakimələr baxımından bu çox güclü əsərin bölmələrini “Böyük məntiq zəncirinin ayrılmaz həlqəcikləri” kimi qiymətləndirir, zaman-zaman vurğulayırlar ki, müəllifin “Azərbaycan dili orfoepiyasının əsasları” kitabından günü bu gün də kifayət qədər məlumat almaq mümkündür. “O, bütün yaradıcılığı boyu dilimizin lüğət tərkibinin inkişaf və zənginləşməsinə çalışıb, “geniş auditoriyalarda da, yığcam fərdi söhbətlər zamanı da yersiz işlədilən əcnəbi sözlərə etirazını bildirib. Biz “həştad” dedikcə, o bizi “səksən”ə çəkər, milli dilə münasibətdə quruluşun verdiyi imkanlardan maksimum istifadə edərdi”.

Bu fenomenal mütəxəssis dilimizlə bağlı hər nüansı dərin alim diqqətilə, poetik bir fəsahətlə pardaqlayıb. Məsələn, o, qrammatik quruluşun ümumi məsələlərilə ayrıca məşğul olarkən, dilin milli orijinallığının qorunub saxlanmasında qrammatik quruluşun böyük rolunu xüsusi nəzərdən keçirərək, onu “dilin əsəb sistemi” kimi qiymətləndirib.

1938-ci ildə ali məktəb tələbələri üçün nəşr etdirdiyi “Azərbaycan ədəbi dili tarixi xülasələri”ni Y.E.Bertels, S.E.Malov, N.K.Dmitriyev kimi dilçilik nəhəngləri namizədlik dissertasiyası kimi müdafiə etməyi tövsiyə edirlər. 1940-cı ildə həmin elmi iş üzrə filologiya elmləri namizədi adı alan Ə.Dəmirçizadə 4 il sonra “Azərbaycan dilinin tarixi” mövzusunda doktorluq dissertasiyasını müdafiə edir.

Dəmirçizadə Azərbaycan dilçiliyinin müxtəlif sahələrinə aid fundamental kitablar, dərin məzmunlu məqalələr yazan böyük türkoloq alim olmaqla yanaşı, həm də bir elm təşkilatçısı kimi tanınıb. Uzun illər çalışdığı APİ-də (ADPU) vaxtaşırı səslənən “dilçi alimlər ordusu” deyimində ayrıca bir “Dəmirçizadə komandanlığı dövrü” ifadəsi də işlədilir. Qədirbilənlərin söhbət-xatirələrindəsə, bu “xarizmatik şəxsiyyət”in əməkseverliyi, səmimiliyi, təmkin, təvazö, qayğıkeşlik kimi keyfiyyətləri daim vurğulanmada.

Sonluqda… o dünyaya belə bir (müxtəsərcə təsvirləyə bildiyim) elmi-ictimai tutumlu tərcümeyi-halla köçmüş şəxsiyyətin –

**Bu dünyaya gəlişindən…**

1909-cu il iyulun 8-də Şəkidə anadan olmuş Ə.Dəmirçizadənin dilçiliyə meyillənməsində (mənə elə gəlir ki,) orada təhsil aldığı məktəblərin ad “əndirəbadi”likləri də az rol oynamayıb: “Həqiqətül-maarif”, “Şəki nümunə zəhmət” və s.

Şəki Müəllimlər Seminariyasını bitirdikdən sonra şəhər məktəbində müəllimliyə başlayan Əbdüləzəl bədii-publisistik yaradıcılığa da həvəs göstərib, “Yeni məktəb” məcmuəsində məqalə, şeir, hekayə və oçerklərlə çıxış edib. Ancaq elmi iş onun maraq dairəsinin nüvəsi imiş deyə, 1929-cu ildə Bakıya gəlib, ADU-nun Pedaqoji fakültəsinə daxil olub. Son kursda oxuyarkən B.Çobanzadənin rəhbərlik etdiyi kafedrada çalışıb.

Universiteti bitirdikdən sonra, ailə vəziyyətilə əlaqədar Şəkiyə qayıdıb, böyük həvəslə müəllimlik edən bu gənc elmi yaradıcılıq eşqi (və “Vətən-Müəllim”hesab etdiyi Bəkir Çobanzadənin təkidli təklifi) ilə yenidən Bakıya dönüb, APİ-nin aspiranturasına daxil olur. B.Çobanzadə, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli, A.Şaiq kimi görkəmli simalardan hərtərəfli dərs alır. 1936-38-ci illərdə çap etdirdiyi “Türk dili” və “Azərbaycan ədəbi dili tarixinin xülasələri” kitabları onu elmi ictimaiyyətin diqqət mərkəzinə yüksəldir. Həmkarları arasında “gənc qoca” çağırılan bu mütəxəssis dil tarixi sahəsində elmi tədqiqatlarını davam etdirərək 1945-ci ildə professor adına layiq görülür, 1955-ci ildə Azərbaycan SSR EA-nın müxbir üzvü seçilir.

Zaman-zaman Azərbaycan dilçiliyinin işlənilməmiş sahələrini araşdırıb, fundamental əsərlər çap etdirmiş bu alimin ölümündən sonra çap olunmuş “Azərbaycan ədəbi dilinin tarixi (II hissə)” kitabı yalnız Azərbaycan dilçiliyini deyil, türk aləmi xəzinəsini də zənginləşdirən nümunə hesab edilir. 100-ə yaxın elmlər namizədi və doktorunun elmi rəhbəri olmaqla, bu sahə kadrlarının hazırlanmasında diqqətəlayiq fəaliyyət göstərir.

Hələ bu “elmi beyin adamı”nın –

**Könül-qəlb yaradıcılığı...**

Bədii yaradıcılığına ötəri bir nəzər də kifayətdir ki, bu fədakar mütəxəssisin elm cəbhəsindəki inkişafının həm də dilimizin xəlqi “səngər”indən kökənləndiyini hiss edəsən. Bu müəllif milli folklor nümunələrimizdən yaradıcılığının hər iki (elmi, bədii) sahəsində eyni dərəcədə yararlanıb. Elmi uğurları mübahisə mövzusu olmayan bu imzaya məxsus “Dədə Qorqud” (1943), “Qaraca Çoban” (1945) və s. əsərlərinin uğurlu tamaşaları da mədəniyyət tariximizin maraqlı faktlarındandır.

…Həyatı boyunca çox maddi-fiziksəl təlim-tədris məktəbləri dəyişməli olmuş bu müəllim bu dünyadan “əmrə-nömrə”siz məktəb yaratmış alimlərimizdən biri kimi köçdü. 1979-da. Çox “yüngül”, “rahat”, “asan” bir iş sahibi – qələm-kağız adamı olması baxımından yanaşıb, dil-ağız təbirilə desək, yetmişcə yaşında...

Allah rəhmət eləsin.

**Tahir ABBASLI**

# "Ürəyində arzu tut" – Gəncədə

Bu günlərdə İrəvan Dövlət Azərbaycan Dram Teatrının yaradıcı kollektivi Sevinc Elsevərin "Ürəyində arzu tut" birpərdəli faciəsi ilə Gəncədə qastrol səfərində oldu. Öncə deyim ki, tamaşaya maraqla baxmağa getdim. Pyes 1992-ci ilin 26 fevralında erməni şovinistlərinin Xocalıda törətdiyi soyqırımının xronoloji təqdimatından ibarətdir. Azərbaycan xalqının qan yaddaşının, zaman-zaman başımıza gətirilən müsibətlərin unudulmaması və gənc nəsillərə çatdırılması baxımından bu kimi pyeslərin səhnə həyatı qazanması təqdirəlayiqdir.



Tamaşa haqqında danışmazdan əvvəl İrəvan Dövlət Azərbaycan Dram Teatrının tarixinə qısa nəzər salmaq istərdim. Bu sənət ocağı 1882-ci ildə fəaliyyətə başlayıb. Həmin ilin aprelində İrəvanda azərbaycanlı teatr həvəskarları tərəfindən Vasaq Mədətov Nəzminin "Tamahkarlıq düşmən qazanır" pyesini tamaşaya qoyması barədə tarixi faktlara rast gəlirik. 1885-ci ildə İrəvana gələn Qori seminariyasının məzunu Firidun bəy Köçərli 1886-cı ildə Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasının tamaşasını təşkil etməklə İrəvan əhalisinin həyatında böyük bir mədəni hadisənin canlanmasını təmin edib. 1895-ci ildə Firidun bəy Köçərli İrəvanı tərk etdiyindən teatra Yunis Nuri rəhbərlik edib və o, 1945-ci ilə kimi İrəvan teatrının tarixində unudulmaz izlər qoyub. 1909-1916-ci illər ərzində teatrın repertuarında bir-birindən maraqlı pyeslər təqdim olunub. 1918-ci ildə daşnakların qətliamları nəticəsində teatrın yaradıcı kollektivi yerindən-yurdundan didərgin düşərək İranın Xoy şəhərində məskunlaşıb. 1922-ci ildə kollektiv geri dönüb. Bu illər ərzində Bala Əfəndiyev, Əkbər Rzayev, Rza Şeyxzadə, Abbasəli Axundov, Əşrəf Yusifzadə, Yusif Ziya, Nəsib Əfəndiyev kimi milli mədəniyyət təəssübkeşləri İrəvan teatrının inkişafı naminə əvəzsiz xidmətlər göstəriblər. 1928-ci ildə teatra dövlət statusu verilib, 1935-ci ildən isə bu sənət məbədi görkəmli dramaturq Cəfər Cabbarlının adını daşıyıb. 1948-ci ildə İrəvan və onun ətraf rayonlarında yaşayan soydaşlarımızın Azərbaycana deportasiyası nəticəsində 1949-cu ildə yaradıcı kollektiv Göyçə mahalının Basarkeçər rayonuna köçürülüb. Bir ildən sonra isə teatrın fəaliyyəti dayandırılaraq əvəzində həmin bazanın əsasında xalq teatrı təşkil olunub. Nəhayət, 1967-ci ildə Yunis Rzayev və Şıxəli Qurbanovun ciddi səyləri nəticəsində Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı yenidən yaradılaraq paytaxt İrəvan şəhərinə köçürülüb. 1988-ci ildə isə növbəti dəfə İrəvan (və bütün Ermənistan) ərazisindəki azərbaycanlılar kimi, yaradıcı kollektiv də tarixi yurd yerimizdən didərgin salınaraq Azərbaycana pənah gətirib...

İrəvan Dövlət Azərbaycan Dram Teatrı bu illər ərzində hər zaman milli dramaturgiyamıza, dünya ədəbiyyatı klassiklərinə, eləcə də müasir müəlliflərə müraciət etməklə repertuar zənginliyini qoruyub saxlayır. Gəncə teatrsevərləri qarşısında teatrın baş rejissoru, Əməkdar artist Sərvər Əliyevin quruluşunda təqdim olunan "Ürəyində arzu tut" tamaşası da bunun təzahürüdür.

Pərdə açılarkən sadə görünüşlü, yataqxana təəssüratı yaradan bir otaqda iki qadın baş verənləri danışmaqla Xocalıda hadisələrin necə cərəyan etməsindən söhbət açır, yaşanan zülmü dilə gətirirlər. Xatirə obrazında Əməkdar artist Xatirə Süleymanova və Şirin obrazında aktrisa Ruhiyyə Eyvazovanın yaratdıqları surətlər bir-birindən fərqli, ancaq baş verən hadisələrə biganə qalmayan azərbaycanlı qadını kimi vəziyyətlər halına uyğun olaraq təqdim olunur. Xatirə Arzunun Xocalıda itkin düşməsindən, sonra əsirlikdə olması xəbərindən sarsılsa da, onu daha bu evin gəlini kimi görmür. Erməni vəhşiləri tərəfindən əsirlərə hansı işgəncələr verilməsini əsas götürərək oğlu Murada da onu unutmağı aşılayır. Qırmızı Xaç Cəmiyyəti vasitəsilə Arzu tərəfindən yazılan məktubun oxunuşu ilə başlanan hadisələr sonradan rejissor traktovkasında daha dolğun bir formada aktyor ifasında tamaşa boyu təqdim olunur.

Şirin obrazında aktrisa Ruhiyyə Eyvazovanın ifası isə bu hadisələri kənardan seyr edən, hətta ara-sıra dili dinc dayanmayan atmacalı sözləri ilə aranı sakitləşdirmək əvəzinə daha da yanan odun üstünü alışdırmaq bacarığının nümayiş olunması da maraqla izlənilir. Murad – gənc aktyor Bəhruz Hikmətoğlunun təqdim etdiyi bu obraz bir qədər sakit təbiətli, baş verən hadisələri soyuqqanlılıqla qarşılamaqla ailə üzvlərinə də vəziyyətdən çıxış yolunun heç də qınaq obyekti olmadığını bildirməsi ilə diqqəti cəlb edir. O, Xocalıda baş verənlərə görə Arzunun günahkar olmadığını anlatmağa çalışsa da, anası Xatirəni fikirlərindən daşındıra bilmir. O, məcburən öz sevgisindən əl çəkməklə yeni bir ailə həyatı qurmaq məcburiyyətində qalır. Arzu. Xocalı faciəsinin və dəhşətlərinin canlı şahidi. O, əsirlikdən gəlib. Erməni şovinizmi onun gəncliyini məhv edib. Aktrisa Şəbnəm Cəbrayılovanın ifasında bu obraz ilk gəlişindən dəhşət saçan Xocalı harayını özüylə səhnəyə gətirmiş olur.

Aktrisa Sevinc Hüseynovanın ifasında həkim Şəfayət xanım obrazı Arzunun yenidən həyata qovuşması, fikir və arzularının reallaşması və müalicəsi üçün var qüvvəsi ilə çalışan, xeyirxah və alicənab bir qadın surəti olaraq diqqəti cəlb edir. O öz məsləhətləri ilə Arzunu yenidən həyatda qüvvətli və qürurlu bir qadın olmağa səsləyir, müəyyən anlarda ona yardım edir. Bütün bu sadalananlar aktrisanın ifasında maraqla baxılır.

Aktyor Niyaməddin Səfərəliyevin oynadığı Yusif obrazı isə hər zaman hadisələrə soyuq baxışlarla baxan, söz danışmaqdan qorxan və çəkinən bir surət olaraq təqdim olunur. O, hətta həyat yoldaşı olan Şirinin hərəkətlərinə nəzarət etmək istəsə də, əslində bunu bacarmır və onun bir baxışından belə sözünün kəsərinin olmadığını göstərir.

Maraqla izlənilən surətlərdən biri də Azaddır. Bu obrazı aktyor Arzuman Tanrıverdili ifa edir.



Onun görünüşü və hərəkətləri məhz hadisələrin burulğanında məhv olan bir azərbaycanlı qızının və azərbaycanlı ailəsinin harayı, hayqırtısı kimi təqdim olunur. Başına gətirilən olmazın müsibətlərini söylədikcə aktrisa vəziyyətləri düzgün ifadə etməklə tamaşaçını inandıra bilir. Onun səhnədə əzablı günlərinin şahidi oluruq və bir an belə halına acımamaq mümkünsüzdür. Gənc aktrisanın ifası maraqla qarşılanır.

Pyes boyu Xocalı boyda bir ağrını daxilində yaşayan Həsrət kişi obrazını aktyor Məhərrəm Musayev ifa edir. O, hadisələri ağsaqqal müdrikliyi və dözümü ilə qarşılasa da, sonda Arzunun əsirlikdən azad edilərək gətirilməsinə və onun halına biganə qala bilmir. Həsrət kişi səhnədə diz çökməklə sanki zamanın gərdişinin qarşısında insan zülmünün, əzablarının məhvinə hayqırır. Bacısı qızı Arzunun və doğma övladı olan Muradın qarşısında bir valideyn olaraq məsuliyyətinin ağırlığını göstərməklə baş verənlərə qarşı isə aciz, əlacsız və miskin görünür. Aktyor öz ifası ilə obrazın daxili aləminin təqdimində erməni vəhşiliklərinin unudulmayacağını göstərə bilir.

Azad əsirlikdən qayıdan Arzunu sevir. Ancaq onun Xocalı faciəsində əsir düşən və olmazın zülmünü görən bir qadın olmasından xəbərsizdir. O öz sevgisini bildirmək üçün Arzunun evinə gəlir. Hadisələr bu zaman daha da şiddətlənir. O, baş verənlərdən xəbər tutan zaman aldandığını söyləyir. Arzunu qınamaqla sanki bütün həyatını və varlığını qınayır. Azadın bu hərəkəti sonda Arzunun intiharı ilə nəticələnir.

İntihar səhnəsi maraqlı bir detalla tamaşaçıya təqdim olunur. Onun əlində olan ağ rəngli kəlağayı paklıq rəmzi olaraq göstərilməklə boynunun ölçüsünə gətirilir və aktrisa Şəbnəm Cəbrayılova bu ölçüdən qarşı tərəfə boylanmaqla sanki gələcək arzularına baxır. Bu arzuların isə heç də uğurlu bir tale qisməti olaraq yaşanmadığı tamaşaçıya təqdim edilir.

Quruluşçu rejissor Sərvər Əliyev səhnə traktovkasında cərəyan edən hadisələri bir məkan çərçivəsində sadə bir formada təqdim edir. O həm də bununla aktyor ifasına geniş meydan verir. Sadə bir mizanla dolğun fikirlərin formalaşmasının nə qədər çətin olduğunu anlayan rejissor bununla da səhnədə aktyorla tamaşaçı arasında olan səddi aradan götürməyə müvəffəq olur.

Son olaraq bir daha qeyd etmək istərdim ki, Sevinc Elsevərin "Ürəyində arzu tut" pyesi Azərbaycan xalqının qan yaddaşının yaşadılması baxımından ən uğurlu əsərlərdən biri kimi qiymətləndirilməlidir.

**Anar BURCƏLİYEV**
**teatrşünas**

## İslam sivilizasiyası Qafqazda

İyulun 11-12-də Azərbaycan İlahiyyat İnstitutu, İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi (İRCİCA) və AMEA-nın Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə "İslam sivilizasiyası Qafqazda" 2-ci Beynəlxalq simpoziumu keçiriləcək.

Simpoziumun keçirilməsində məqsəd Qafqazda İslam sivilizasiyasının yayılması tarixinin elmi şəkildə öyrənilməsi və bu tarixin aktual problemlərinin araşdırılmasıdır. Beynəlxalq tədbirdə Türkiyə, Rusiya, Gürcüstan, İran, Ukrayna, Qazaxıstan, Özbəkistan, Moldova, ABŞ, Avstraliya, Misir və Səudiyyə Ərəbistanının universitetlərində Qafqazda İslam sivilizasiyası mövzusu üzrə çalışan alim və ekspertlər məruzələrlə çıxış edəcəklər.

Simpoziumda "Qafqazda İslam memarlığı, incəsənəti və ədəbiyyatı", "Çar Rusiyasının Qafqazda İslam siyasəti", "Qafqaz alimlərinin İslam dünyasında dəqiq, təbiət və humanitar elmlərin inkişafında rolu" və s. panellərdə 100-dək məruzə dinləniləcək.

# ƏSA Teatrı mövsümü başa vurub

Əlilliyi olan və olmayan aktyorlardan ibarət inklüziv ƏSA Teatrı iyulun 6-da mövsümün son tamaşasını nümayiş etdirib. Akademik Rus Dram Teatrının səhnəsində nümayiş olunan "Adamlar və siçanlar" tamaşası anşlaqla keçib.

Tamaşanın nümayişindən əvvəl teatrın təsisçisi və rəhbəri Nihad Qulamzadə inklüziv teatrının fəaliyyətini davam etdirməsi üçün görülən işlərdən danışıb. Bildirib ki, ƏSA Teatrını yaşadan tamaşaçıların sevgisi və rəğbətidir.

Quruluşçu rejissorun tamaşaya əlavə etdiyi yeni interpretasiya maraqla qarşılanıb. İnteraktiv şəkildə hazırlanan tamaşanın klassik üslubdakı versiyasından fərqi diqqəti daha çox çəkib.



Qeyd edək ki, ƏSA Teatrının repertuarında olan "Adamlar və siçanlar" tamaşası Nobel mükafat laureatlı yazıçı Con Steynbekin eyniadlı əsərinin motivləri əsasında hazırlanıb. Tamaşada film effektlərindən də uğurla istifadə olunub.

Tamaşanın quruluşçu rejissoru Nihad Qulamzadə, baş meneceri Nicat Qulam, multimedia meneceri Elxan Xanəlizadə, işıq rəssamı Binyamin Sailovdur. Rolları Elşən Əskərov, Elvin Mirzəyev, Səmayə Ağayarova, Niyaz Qasımov, Cəmilə Məmmədli, Riad Sultanov, Fərid Əliyev, İmran Lələyev, Günay Məmmədova, Bəhram Rəhimli və Orxan Əliyev canlandırıb.

Nümayişdən sonra tamaşaçılara gənc yazar Elman Süleymanovun "Üçüncü dünya müharibəsi" kitabı hədiyyə olunub.

## Xatirə təqvimi — 10-12 iyul

### Azərbaycan

**10 iyul 1899** – Şair Xəstə Bayraməli (Bayraməli Abbasəli oğlu Xudiyev; 1899-1952) Qərbi Azərbaycanda, Göyçə mahalının Nərimanlı kəndində anadan olub.

**10 iyul 1930** – Xalq yazıçısı Sabir Məhəmməd oğlu Əhmədli (1930 – 17.4.2009) Cəbrayıl rayonunda doğulub. "Pillələr", "Toğana", "Yasamal gölündə qayıqlar üzür", "Mavi günbəz", "Gedənlərin qayıtmağı", "Dünyanın arşını", "Kütlə", "Axirət sevdası" və s. kitabları işıq üzü görüb. Əsərləri xarici dillərə tərcümə edilib.

**10 iyul 1924** – Ədəbiyyatşünas, türkoloq, tərcüməçi Əkbər Ağarza oğlu Babayev (1924 – 12.9.1979) anadan olub.

**11 iyul 1918** – Şair, yazıçı, maarifçi Abbas Səhhət (Abbasqulu Mehdizadə; 1874-1918) vəfat edib. Bədii yaradıcılıqla yanaşı, milli məktəblər üçün ilk dərsliklərin ("Yeni məktəb", "Türk ədəbiyyatına ilk qədəm") hazırlanmasında iştirak edib, uşaqlar üçün şeir və hekayələr yazıb. İxtisasca həkim olub. 1918-ci ildə ermənilərin talan etdiyi Şamaxıda peşə borcunu yerinə yetirərkən vəba xəstəliyinə tutularaq dünyasını dəyişib.

**11 iyul 2006** – Görkəmli kinorejissor, operator, Xalq artisti Rasim Mirqasım oğlu Ocaqov (22.11.1933 – 2006) vəfat edib. "Tütək səsi", "Qatır Məmməd", "Ad günü", "İstintaq", "Ölsəm, bağışla", "Təhminə" və s. filmlərə quruluş verib. "Bir cənub şəhərində", "Onun böyük ürəyi" və s. filmlərin operatoru olub.

**12 iyul 1911** – Böyük satirik şair, maarifçi və mütəfəkkir Mirzə Ələkbər Sabir (30.5.1862 – 1911) vəfat edib. "Molla Nəsrəddin" jurnalında fəaliyyəti şairin yaradıcılığının ən yetkin, məhsuldar dövrüdür. Ölümündən sonra şeirləri "Hophopnamə" adlı topluda nəşr olunub.

### Dünya

**10 iyul 1871** – Fransız yazıçısı Marsel Prust (Valentin Louis Georges Eugune Marcel Proust; 1871-1922) anadan olub. "İtirilmiş zamanın axtarışında" adlı silsilə əsərlərin (17 roman) müəllifidir.

**10 iyul 1918** – Avstraliya əsilli ingilis yazıçısı Ceyms Oldric (James Aldridge; 1918 – 23.2.2015) anadan olub. Əsərləri: "Şərəf məsələsi", "Dəniz qartalı", "Diplomat" (1940-cı illərdə Cənubi Azərbaycanda baş verən olaylar da təsvir olunub) və s.

**11 iyul** Dünya əhali günüdür (World Population Day). 1987-ci ilin 11 iyulunda Yer kürəsi əhalisinin sayının 5 milyardı keçməsi ilə bağlı təsis olunub. 1989-cu ildən BMT İnkişaf Proqramının tövsiyəsi ilə qeyd olunur.

**12 iyul 1813** – Fransız psixoloqu, eksperimental psixologiyanın banisi Klod Bernar (Claude Bernard; 1813-1878) anadan olub.

**12 iyul 1884** – İtalyan rəssamı Amadeo Modilyani (Amedeo Clemente Modigliani; 1884-1920) anadan olub. Qadın rəsmlərinin mahir ustası olub.

**12 iyul 1904** – Çili şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1971) laureatı Pablo Neruda (Pablo Neruda - Ricardo Eliezer Neftal Reyes Basoalto; 1904-1973) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

## AFİŞA — 11-14 iyul

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Füzuli meydanı 1)**

| | | |
|---|---|---|
| 11 iyul | K.Abdulla - "Bir, iki - bizimki!" (A.M.Şərifzadə səhnəsində) | 19.00 |
| 12 iyul | C.Cabbarlı – "Almaz" | 19.00 |
| 13 iyul | İ.Əfəndiyev - "Boy çiçəyi" | 19.00 |
| 14 iyul | İ.Əfəndiyev - "Qarabağnamə" | 19.00 |

**Azərbaycan Dövlət Akademik Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 12 iyul | E.Sabitoğlu, V.Kolmanovski - "Bir dəfə Bağdadda" (rus dilində) | 19.00 |
| 13 iyul | Ü.Hacıbəyli - "Arşın mal alan" | 19.00 |
| 14 iyul | Ü.Hacıbəyli - "O olmasın, bu olsun" | 19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | | |
|---|---|---|
| 12 iyul | Ərəb xalq nağılı - "Əlibaba və qırx quldur" | 12.00, 14.00 |
| | T.Ağayev - "Qoçaq Əhməd" (rus dilində) | 16.00 |
| 13 iyul | C.Barri - "Piter Pen" | 12.00, 14.00 |
| | Rus xalq nağılı - "Durna balığı" (rus dilində) | 16.00, 18.00 |
| 14 iyul | Türk xalq nağılı - "Keloğlan" | 12.00, 14.00 |
| | Rus xalq nağılı - "Qoğal" (rus dilində) | 16.00, 18.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küç. 2)**

| | | |
|---|---|---|
| 12 iyul | Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri Bədii rəhbər və baş dirijor – Rauf Abdullayev | 19.00 |

**Beynəlxalq Muğam Mərkəzi (Dənizkənarı Milli Park)**

| | | |
|---|---|---|
| 12 iyul | "Unudulmayanlar" layihəsi çərçivəsində konsert | 19.00 |

## Andre Moruanın "Vəsiyyətnamə"si Azərbaycan dilində

Azərbaycan Dövlət Tərcümə Mərkəzinin növbəti nəşri – məşhur fransız yazıçısı Andre Moruanın "Vəsiyyətnamə" kitabı Azərbaycan dilində işıq üzü görüb.




Kitaba yazıçının müxtəlif illərdə qələmə aldığı 13 hekayəsi ("Bioqrafiya", "Qızıl pulun qarğışı", "Mirrina", "Çərşənbə gününün bənövşələri", "Vəsiyyətnamə", "Balzakın günahı ucbatından" və s.), eləcə də dünyaca məşhur "Yad qadına məktublar" romanı daxil edilib.

İncə bədii duyum, dərin psixologizm, klassik düşüncə sahibi olan Morua bioqrafik hekayələr və romanlar ustası kimi tanınır. Yazıçının Şelli, Bayron, Balzak, Hüqo, Düma, Jorj Sand, Turgenev, Çexov və digər dünya ədibləri haqqında qələmə aldığı esse və xatirələri onun memuar ədəbiyyatı janrının parlaq müəllifi kimi də əbədiləşdirib.

Əsərləri dilimizə tanınmış şair, tərcüməçi Mahir Qarayev çevirib. Kitabın redaktoru Rəbiqə Nazimqızıdır.

# “Avropanı qayaüstü incəsənətlə gəzək”

## Portuqaliyanın Foz Koa qaya təsvirləri Qobustanda

Qobustan Milli Tarix-Bədii Qoruğunda “Avropanı qayaüstü incəsənətlə gəzək” adlı sərgi açılıb. İyulun 5-də keçirilən sərgi Portuqaliyanın UNESCO-nun Dünya irs siyahısına daxil edilmiş qədim incəsənət abidəsi – Foz Koa qayaüstü təsvirlərinə həsr olunub.



Mərasimdə çıxış edən Qobustan Milli Tarix-Bədii Qoruğunun direktoru Vüqar İsayev sərginin əhəmiyyətindən danışıb. Qeyd edib ki, Qobustan qoruğunun dünyada tanıdılması üçün müxtəlif layihələr icra olunur, əməkdaşlıq əlaqələri qurulur. Bu sərginin təşkil olunması da Qobustan qoruğu və Foz Koa qoruğu arasında əməkdaşlığın başlanğıcı olacaq. Bu əməkdaşlığın gücləndirilməsi məqsədilə oktyabr ayında Qobustan qoruğunun Portuqaliyada sərgisi təşkil olunacaq.

Foz Koa qoruğunun direktoru Buruno Navarro bildirib ki, bu tarixi məkandakı qayaüstü rəsmlərin yaşı 20-30 min ili əhatə edir. Onun sözlərinə görə, Avropanın iki ən böyük açıq səma altında qayaüstü incəsənət abidəsi olan Qobustan və Foz Koa arasında arxeoloji kontekstə bənzər cəhətlər var. Tədqiqatçılar xüsusilə bu iki abidədə nəsli kəsilmiş ibtidai öküz təsvirlərinin stilistik və xronoloji bənzərliyini vurğulayırlar.

Qonaq sərginin Qobustan qoruğu ilə əlaqələrin inkişafı üçün əhəmiyyətli olacağını bildirib: “Budan sonra qarşılıqlı səfərlərin, sərgilərin təşkili, təcrübə mübadiləsinin aparılması istiqamətində çalışacağıq”.

Tədbir iştirakçıları daha sonra sərgi ilə tanış olublar. Sərgidə Foz Koa dərəsində qayaüstü təsvirlərin aşkar olunması, onların qorunması uğrunda ictimaiyyətin mübarizəsi, bu qayaüstü incəsənətin UNESCO-nun Dünya irs siyahısına daxil edilməsi, burada aparılan arxeoloji araşdırmalar haqqında məlumatlar və illüstrasiyalar əksini tapıb.

Sərgi iyulun 15-dək davam edəcək.

# “Şərqdən Qərbə əsən meh”

## Ədəbi-musiqili gecə keçirilib



İyulun 5-də Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və orqan musiqisi zalında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə “Şərqdən Qərbə əsən meh” adlı tədbir keçirildi.

Tədbir böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illiyinə və almanların Cənubi Qafqaza köçməsinin 200 illiyinə həsr olunmuşdu. Layihənin ideya müəllifi və bədii rəhbəri Xalq artisti Mehriban Zəkidir.

Ədəbi-musiqili gecədə mədəniyyət və incəsənət xadimləri, ölkəmizdə yaşayan və çalışan almanlar iştirak edirdilər. İstedadlı sənətçilərin yer aldığı sənət layihəsi tamaşaçıların marağına səbəb oldu.

Tədbirin təşkilinə görə Mədəniyyət Nazirliyinə təşəkkürünü bildirən Xalq artisti Mehriban Zəki “Nəsimi ili”nin təntənə ilə davam etdiyini və mütəfəkkir şairin irsinin əsrlər sonra da böyük maraq doğurduğunu dedi.

Sonra Nəsiminin “Ey könül”, “Canda ki eşq olmadı”, “Ey təbib”, “Allahu əkbər, ey sənəm”, “Bulmuşam həqqi” və s. qəzəlləri ilə alman bəstəkarlarının məşhur musiqi əsərlərindən ibarət kompozisiya təqdim olundu. İ.S.Bax, F.Mendelson, F. Şubert kimi bəstəkarların irihəcmli musiqi əsərlərindən parçaların milli musiqi alətlərində müşayiəti marağa səbəb oldu.

Mehriban Zəki və Ziya Ağanın ifasında səslənən qəzəllər, vokalçılar İlham Nəzərov (kontrtenor), İslama Abdullayeva (soprano), muğam ifaçıları Səidə Babışova, Mütəllim Dəmirovun çıxışları ilə süslənən Şərq-Qərb sənət atmosferi hər kəsə xoş ovqat bəxş etdi.

**HƏMİDƏ**



# “Azərbaycan rənglərinin ahəngi” Polşada

Polşanın Pruşkuv şəhərində Azərbaycanın qadın rəssamlarının əsərlərindən ibarət sərgi keçirilib. Sərgi “Sönməz Məşəl” Mədəni Əlaqələr İctimai Birliyinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə həyata keçirdiyi “Azərbaycan rənglərinin ahəngi” adlı layihə çərçivəsində təşkil olunub.



İyunun 30-dan iyulun 3-dək Pruşkuv şəhər Mədəniyyət və İdman sarayının qalereyasında keçirilən sərgidə Nərminə Vəliyeva, Səidə Kəbirlinskaya, Nurgül Əliyeva, Zəhra Məmmədzadə, Əzizə Sadıqova, Leyla Babayeva, Şura Zeynal, Zəhra İldırımzadə və Leyli Musayevanın əsərləri nümayiş olunub.

İyulun 1-də sərginin rəsmi açılış mərasimi keçirilib. Mərasimi Polşada fəaliyyət göstərən “Fundacja Pokolenia Pokoleniom” qeyri-hökumət təşkilatının sədri Barbara Texmoşenski açaraq sərgi barədə qonaqlara məlumat verib.

Azərbaycanın Polşadakı səfiri Həsən Həsənov iki ölkənin əlaqələrindən bəhs edib, mədəniyyət tədbirinin Pruşkuv şəhərində keçirilməsinin təsadüfi olmadığını deyib. Bildirib ki, Bakının Xəzər rayonu ilə Polşanın bu rayonu qardaşlaşmış şəhərlər kimi sıx əlaqə saxlayır. Diplomat Azərbaycanda rəngkarlıq sənətinin zəngin tarixə malik olduğunu xatırladıb, bu sərgidə isə müasir Azərbaycan rəssamlarının əsərləri ilə tanış olmaq imkanı yaradıldığını bildirib.

“Sönməz Məşəl” Mədəni Əlaqələr İctimai Birliyinin sədri, Azərbaycan Dillər Universitetinin dosenti Şəhla Nağıyeva çıxış edərək sərginin təşkilinə Azərbaycan dövlətinin verdiyi dəstəyi xüsusi vurğulayıb, belə mədəniyyət tədbirlərinin xalqlar arasında körpü rolunu oynadığını deyib.

Rəssam Nərminə Vəliyeva nümayiş edilən əsərləri barədə danışıb.

Pruşkuv şəhərinin rəhbəri Pavel Mekux və Pruşkuv rayonunun starostası Kriştof Ryumuza da tədbirin əhəmiyyətini qeyd ediblər.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar. Qonaqlara Heydər Əliyev Fondunun Azərbaycan tarixi və mədəniyyəti mövzusunda nəşr etdiyi kitablar, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin hazırladığı reklam bukletləri, eləcə də Bakıda fəaliyyət göstərmiş polyak əsilli memarlar haqqında kitablar hədiyyə edilib.

Qeyd edək ki, “Sönməz Məşəl” Mədəni Əlaqələr İctimai Birliyi oxşar mədəniyyət tədbirlərini QHT-lərə Dövlət Dəstəyi Şurasının yardımı ilə bundan əvvəl ABŞ, Avstraliya, İtaliya, Almaniya, Macarıstan və başqa ölkələrdə də təşkil edib.

# Tutanxamonun büstü 6 milyon dollara satılıb

Misir fironu Tutanxamonun büstü “Christie’s” hərrac evində təqribən 6 milyon dollara satılıb. Bu barədə satış evinin nümayəndələri məlumat yayıb.

Məlumata görə, adını bildirməyən alıcı hərrac rüsumu nəzərə alınmaqla büst üçün 4 milyon 746 min funt ödəyib ki, bu da təxminən 6 milyon ABŞ dolları edir.

Xatırladaq ki, Misirin rəsmi dairələri Tutanxamonun büstünün hərraca çıxarılmasına etirazını bildirmişdi. Bu ölkənin hökumət orqanları vaxtilə əcnəbi arxeoloqlar tərəfindən tapılmış və ölkədən qeyri-qanuni yolla çıxarılmış artefaktların geri qaytarılması tələbini neçə illərdir ki, irəli sürürlər.

**SƏBİNƏ**

# Afrika cazı və muğam bir arada

Beynəlxalq Muğam Mərkəzində Mali Respublikasının “Cheick Tidiane Seck” qrupu və yerli musiqiçilər maraqlı konsert proqramı ilə çıxış ediblər.



Konsertdə Afrika cazı və onun muğamla sintezi səsləndirilib.

Qrupun rəhbəri Şek Tidian Sek dünya şöhrətli musiqiçilər Karlos Santana, Stiv Vander, Rendi Vuesten, Cimi Kliff və “Gorillaz” qrupu ilə birgə çalışdığını bildirib.

Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəliyinin rəhbəri, səfir Anar Kərimov qonaqları belə gözəl məkanda görməkdən şad olduğunu vurğulayıb. Qeyd edib ki, caz millətləri və mədəniyyətləri bir araya gətirən gözəl vasitədir.

Malidən olan qrupa Şek Tidian Sek, Manteqari Frank (zərb), Adama Dembele (perkusiya), Cankey Suso (vokal), Mohamed Hafsi (bas-gitara), Mamadi Diabate (gitara) daxildir. Gecədə həmçinin “Bacustik Jazz” qrupunun – Salman Qəmbərov (piano), Emin Həsənov (bas-gitara) və Vaqif Əliyev (zərb) çıxış edib. Konsertdə muğamın cazla sintezi Səxavət Məmmədov (tar), Oqtay Şərifov (kamança) və Almaxanım Əhmədlinin (vokal) ifasında səsləndirilib.

# Şəki ilə bağlı tarixi qərar Türkiyə mətbuatında geniş işıqlandırılıb

Türkiyə mediası Dünya İrs Komitəsinin 43-cü sessiyasının iyulun 7-də keçirilən iclasında Azərbaycanın təqdim etdiyi “Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi” adlı nominasiyasının UNESCO-nun Dünya irs siyahısına daxil edilməsinə böyük diqqət ayırıb.




Anadolu agentliyi, NTV, “TRT Avaz” kanalları, digər kütləvi informasiya vasitələri bu barədə ətraflı məlumat veriblər.

Qeyd edək ki, Dünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyası Türkiyə mediasında geniş işıqlandırılır.

***

Azərbaycanın “Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi” adlı nominasiyasının UNESCO siyahısına daxil edilməsi bütün türk dünyasının uğurudur. Bu tarixi nailiyyətin əldə olunması bir tərəfdən Azərbaycanın qədim tarixinin və mədəniyyətinin mövcudluğunun, digər tərəfdən isə dövlətin öz zənginliyinə sahib olmasının göstəricisidir.

Bu fikri Əskişəhərdə fəaliyyət göstərən Əmirdağ Kültür və Sənət Dərnəyinin (ESAB) rəhbəri, yazıçı-publisist Əhməd Urfalı ifadə edib.

Bu nailiyyət münasibətilə xalqımıza təbriklərini çatdıran Ə.Urfalı deyib ki, Azərbaycanın UNESCO ilə çoxtərəfli əməkdaşlığı təqdirəlayiq haldır. Bu əməkdaşlıqda Heydər Əliyev Fondunun gözəl bir ənənə yaratdığını diqqətə çatdıran yazıçı-publisist əmin olduğunu bildirib ki, tezliklə Qarabağ problemi həllini tapacaq və işğaldan azad olunan Azərbaycan torpaqlarındakı abidələr də UNESCO tərəfindən yüksək dəyərini alacaq.

# İki min yaşı olan İpək Yolu beş ildir UNESCO siyahısındadır

UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində iyulun 6-da Bakı Konqres Mərkəzində Böyük İpək Yolunun tarixi və mədəni irsinin qorunub saxlanılması ilə bağlı fotosərgi açılıb.



Çin Xalq Respublikası (ÇXR) tərəfindən təşkil olunan sərgi qədim İpək Yolunun Dünya irs siyahısına salınmasının 5-ci ildönümünə həsr edilib. Tədbirdə ÇXR-in Mədəni İrsin Qorunması üzrə Dövlət İdarəsinin rəhbəri Lyu Yoycoy Azərbaycanın sessiyaya yüksək səviyyədə ev sahibliyi etdiyini vurğulayıb, Bakıda müzakirə olunan məsələlərin dünya mədəni irsinin qorunması baxımından əhəmiyyətini qeyd edib.

Fotosərgi barədə danışan Lyu Yoycoy deyib ki, əsas məqsəd İpək Yolu üzərində yerləşən ölkələrin tarixi-mədəni irsinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsidir.

Digər çıxış edənlər də sərgini tarixi İpək Yolu üzərində yerləşən ölkələrin mədəni irsinin təşviqi baxımından yüksək dəyərləndiriblər. Bildirilib ki, iki min il ərzində Qərblə Şərqi birləşdirən Böyük İpək Yolu, öz tarixi əhəmiyyətini yenidən bərpa etməklə, yenə də müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında körpü rolunu oynayır.

Sərgidə Çinin tarixini və müasir inkişafını əks etdirən 100-ə yaxın foto nümayiş etdirilib.

# Mərakeş qəzeti Bakı sessiyası haqqında

Mərakeşin “Əl-İslah və ət-Tənmiyə” qəzetində UNESCO-nun Dünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyası ilə bağlı məqalə dərc edilib.

“Bakı Dünya İrs Komitəsini qəbul edir” başlıqlı məqalədə diqqətə çatdırılır ki, 43-cü sessiyada Dünya İrs siyahısına daxil edilməsi üçün 36 müraciət nəzərdən keçirilir. Məqalədə həmçinin sessiyada müzakirə olunan digər məsələlərdən də bəhs olunur.

Mədəniyyət Nazirliyinin kollektivi Ağdam Dövlət Dram Teatrının baş rəssamı

**Elman Balakişiyevin**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 530-34-38 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan“ nəşriyyatında çap olunub.
**Tiraj:** 5150
**Sifariş:** 2317
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.